## Pensiya yaşı mütləq azaldılmalıdır

Qadınlar sosial baxımdan dəstəyə daha çox ehtiyacı olan vətəndaşlarımızdır



İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) qadınların pensiya yaşının azaldılmasını təklif edib. Bu məsələ Milli Məclisin İnsan hüquqları komitəsinin ötən gün keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsi"ndə öz əksini tapıb.

(səh.6)



## Əfv Komissiyasının iclası olub

Baxılan müraciətlərin sayı 1200-ü keçib

**Bu gün Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda daha 150-dən çox müraciətə baxılıb.

*Qeyd edək ki, komissiya indiyə qədər 1200-dən çox müraciətə baxıb.*




№ 43 (5804) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 mart 2023-cü il (çərşənbə)

# Müdafiə Nazirliyi xəbərdarlıq edib

Azərbaycan qanunsuz erməni hərbi ünsürlərinə qarşı zəruri tədbirlər görmək məcburiyyətində qalacaq



Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda Rusiya sülhməramlılarının müşayiəti ilə ermənilərin hərbi təyinatlı daşımaları bir daha təsbit olunub

Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda baş vermiş insidentdən sonra Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin bu yoldan hərbi təyinatlı daşımaları həyata keçirmək məqsədilə növbəti dəfə istifadə etməsi Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələrinin texniki müşahidə vasitələri ilə qeydə alınıb. Bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

(səh.2)



## Çin şirkətləri azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinə dəvət olunub

İlham Əliyev Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi ilə danışıqlar aparıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.**

İlk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdıran Vu Honqbo Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini məmnunluqla xatırlayıb.

(səh.2)

## Deputat təklif verdi

Qarabağda da Ombudsmanın regional ofisi yaradılmalıdır



**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlament sədri Sahibə Qafarova martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda Ermənistan tərəfindən növbəti dəfə təxribat törədildiyini, şəhidlərimiz olduğunu deyib.**

Spiker bildirib ki, törədilən hadisə bir daha üçtərəfli bəyanatın yerinə yetirilməsinin vacib olduğunu göstərir. Daha sonra İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyevanın illik məruzəsi dinlənib. Ardınca deputatlar məruzəyə münasibətlərini bildiriblər.

(səh.3)

# Türkiyədə gərgin seçki gözlənilir

Mübarizə Ərdoğanla Kılıçdaroğlunun arasında keçəcək



**Türkiyənin müxalifət koalisiyası olan "Millət İttifaqı" prezidentliyə namizədinin adını açıqlayıb.** Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlunun namizədliyi rəsmən elan edilib. Bu barədə "altılı masa"nın son toplantısında qərar qəbul olunub. Altı lider səhnəyə birlikdə çıxıb və qərarı Səadət Partiyasının sədri Təməl Karamollaoğlu açıqlayıb.

(səh.4)



## Azərbaycanda koronavirusla bağlı məsələ artıq bitib

Üzü yaya doğru gedirik, yayda rəqəmlər sıfıra enəcək

**Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə təmas qrupunun zirvə görüşünə videoformatda qoşulan Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus pandemiyanın bitməsi ilə bağlı məlumat verib:**

"Pandemiya bitir. İndi hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir".

(səh.4)

## 6 nəfər ölüb

Daha 53 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 53 yeni yoluxma faktı qeydə alınıb, 32 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 828 783 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 818 418 nəfər müalicə olunaraq sağalıb, hazırda 230 aktiv xəstə var. Bu günə qədər 10 135 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 664, bu günə qədər isə ümumilikdə 7 534 623 test icra olunub.*

## Bakı metrosunda yaşlı kişi dünyasını dəyişib



**Bu gün "Bakı Metropoliteni" QSC-nin "Koroğlu" stansiyasında yaşlı kişi sərnişin dünyasını dəyişib.**

Bu barədə qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov məlumat verib.

Onun sözlərinə görə, sərnişin özünü pis hiss etdiyi üçün dərhal təcili tibbi yardım çağırılıb, lakin onun həyatını xilas etmək mümkün olmayıb.

"Təəssüf ki, təcili yardıma məlumat verildikdən az sonra sərnişin vəfat edib", - o qeyd edib.



## Qarabağda təxribatların törədiləcəyini gözləyirdik

Yenə də lokal xarakterli döyüşlər və antiterror əməliyyatları istisna olunmur

(səh.3)



## AZAL təyyarə biletlərinin qiymətlərini dəyişmir

Heç olmasa, tələbələrin quru sərhəddən keçməsinə şərait yaradılmalıdır

(səh.3)



# Çin şirkətləri azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinə dəvət olunub

## İlham Əliyev Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi ilə danışıqlar aparıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Vu Honqbonu qəbul edib.**

İlk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdıran Vu Honqbo Azərbaycan Prezidenti ilə əvvəlki görüşlərini məmnunluqla xatırlayıb.

Qonaq bildirib ki, Azərbaycan Prezidentinin güclü rəhbərliyi altında ölkəmizin iqtisadi və digər sahələrdə əldə etdiyi uğurlar onlarda böyük təəssürat hissi doğurur.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı özünün Çinə rəsmi səfərini, bu səfər zamanı və beynəlxalq tədbirlərdə Çin Xalq Respublikasının Sədri ilə görüşlərini xatırlayaraq bildirib ki, Si Cinpinin Azərbaycan Prezidentini Çinin böyük dostu adlandırmasından böyük məmnunluq hissi duyur.

Vahid Çin siyasətini, Çinin ərazi bütövlüyü və suverenliyini daim dəstəklədiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində Çinlə əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu vurğulayıb, əlaqələrimizin ildən-ilə güclənməsindən məmnunluğunu bildirib və ölkələrimiz arasında əməkdaşlığın yalnız müxtəlif siyasi platformalarda deyil, eyni zamanda, iqtisadi sahədə və ”Bir kəmər, bir yol” çərçivəsində də genişləndiyini deyib. Dövlətimizin başçısı bu baxımdan Çindən Azərbaycan vasitəsilə qərb istiqamətində daşınan yüklərin həcminin artmasını bunun yaxşı nümunəsi kimi dəyərləndirib.

Prezident İlham Əliyev COVID-19 pandemiyası zamanı Çin Xalq Respublikasının Sədrinə göndərdiyi məktubu xatırladaraq Çinin ölkəmizə vaksinləri ayırmasını və bunun nəticəsində Azərbaycanın dünyada vaksinasiyaya başlayan ilk ölkələrdən biri olduğunu xüsusilə qeyd edib, bunu ölkələrimiz arasında dostluğun bariz nümunəsi kimi dəyərləndirib, bu faktın Azərbaycan dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini deyib.

Qonaq Çinin ölkəmizin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini qeyd edib.

Vu Honqbonun Bakıda keçiriləcək növbəti Qlobal Forumda iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı onun səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirib.

Çin Hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin artıq dünya səviyyəsində tanınmış mərkəzlərdən biri olduğunu qeyd edib, burada beynəlxalq sülh və təhlükəsizlik gündəliyində duran çox vacib müzakirələrin aparıldığını deyib və Mərkəzin gələcək fəaliyyətinə uğurlar arzulayıb.

Görüşdə iqtisadi, humanitar və turizm sahələrində əməkdaşlığın daha da genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb, əlaqələrimizin inkişafı üçün böyük imkanların olduğu bildirilib, media, elm-tədqiqat mərkəzləri və insanlar arasında təmasların artırılmasının vacibliyi vurğulanıb.

Dövlətimizin başçısı Azərbaycanın bərpaolunan enerji potensialı barədə məlumat verib. Çinin bu sahədə böyük texnoloji imkanlara malik olduğu qeyd edilib.

Söhbət zamanı Çin şirkətləri işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinə dəvət olunublar.

# Prezident Bolqarıstanın yeni səfirinin etimadnaməsini qəbul edib

## İlham Əliyev: “Azərbaycan və Bolqarıstan arasında ticarət dövriyyəsinin artırılması üçün səylər göstərilməlidir”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Bolqarıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ruslan Stoyanovun etimadnaməsini qəbul edib.**

APA xəbər verir ki, səfir Ruslan Stoyanov etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Ölkələrimizin yaxın və strateji tərəfdaş olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunaraq vurğuladı ki, dostluq əlaqələrini nümayiş etdirən bu səfərlər zamanı ikitərəfli gündəlikdə duran çox mühüm məsələlərlə bağlı qərarlar qəbul olunub.

Dövlət başçısı hazırkı əməkdaşlığımızın əsas mövzularından birinin enerji sahəsinə aid olduğunu deyərək, Cənub Qaz Dəhlizi layihəsinin önəminə toxundu, enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində ölkələrimizin uzun illər bundan sonra da yaxın tərəfdaş olacaqlarına ümidvarlığını bildirdi. Prezident İlham Əliyev, eyni zamanda, birgə layihələrin həyata keçirilməsinin Bolqarıstana Azərbaycan qazı üçün tranzit ölkəyə çevrilmək imkanı yaratdığını qeyd etdi.

Azərbaycan Prezidenti enerji sahəsi ilə yanaşı, digər sahələrdə də əməkdaşlığın inkişafı üçün potensialın olduğunu bildirdi, ticarət dövriyyəsinin artırılması üçün səylərin göstərilməsinin vacibliyini vurğuladı.

Ölkələrimiz arasında qarşılıqlı siyasi fəaliyyətin yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığında Bolqarıstanın rolunu qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Ruslan Stoyanov, ilk növbədə, Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rumen Radevə çatdırmağı xahiş etdi.

Azərbaycanın Bolqarıstan üçün strateji tərəfdaş ölkə olduğunu vurğulayan səfir dövlətlərimiz arasında mövcud olan qarşılıqlı etimadın və yüksəksəviyyəli görüşlərin strateji tərəfdaşlığımızın göstəricisi olduğunu dedi. Ruslan Stoyanov vurğuladı ki, Azərbaycan-Bolqarıstan münasibətləri yalnız strateji xarakter daşımır, onlar həm də dost münasibətləridir. Səfir Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsinin əhəmiyyətinə də toxundu.



# Deputatlar narazıdır

## Qanunun üzərində xeyli işləmək lazımdır

**Milli Məclisin üzvləri ”Elektroenergetika haqqında” qanun layihəsinin müzakirəsi zamanı layihəyə yenidən baxılmasını və üçüncü oxunuşa kimi dinləmələr keçirilməsini təklif ediblər. Deputat Razi Nurullayev bildirib ki, ”Elektroenergetika haqqında” qanunun bu şəkildə qəbulu ciddi problemlər yarada bilər:**

”Qanun üzərində xeyli işləmək lazımdır. Onu sadə istehlakçıların, yəni elektrik enerjisindən istifadə edən aztəminatlı insanların maraqlarına uyğunlaşdırmağa çalışmalıyıq”. Deputat deyib ki, qanunun bu şəkildə qəbulu elektrik enerjisinin qiymətinin bir neçə dəfə artması ilə nəticələnəcək: ”Bu isə sosial narazılıq, əhalinin sosial vəziyyətinin ağırlaşması və bütün istehlak məhsullarının artımına səbəb olacaq. Yəni bazarda olan qiymətlər də 2-3 dəfə bahalaşacaq. Bunun ardınca qaz və su qiymətləri də artmağa doğru gedəcək, çünki iqtisadiyyatın aparıcı qüvvəsi həm də elektroenergetika sahəsidir. Digər tərəfdən, elektroenergetika bazarının liberallaşdırılması enerjinin müxtəlif şirkətlər tərəfindən əhaliyə satılması deməkdir. Bu gün regional paylayıcı şəbəkələrin 70 faizi istismar dövrünü bitirib, irihəcmli sərmayələr tələb olunur ki, onları sağlamlaşdıra bilək. Biz bu şəbəkələri sağlamlaşdırmadan liberal bazar modelinə keçidlə vəziyyəti daha da ağırlaşdıracağıq. Əminlik varmı ki, hansısa şirkət yüz milyonlarla vəsaiti yatıracaq və regional paylayıcı şəbəkələri yeniləyəcək? ”Barmek” və ”Bayva”nın timsalında gördük ki, mövcud sistemləri dağıtdılar, bir manat da vəsait yatırmadılar. Pul qazanmaq istəyən şirkətin nəyinə lazımdır ki, camaat narazı qalacaq, ödəməyə gücü çatmayacaq. Şirkətlərin qarşısında tələb qoyulacaq ki, infrastrukturu yeniləyin. Onlar da baxacaq ki, mövcud tariflə pul yatırmağa dəyməz, tələb edəcək ki, enerji tarifləri iki-üç dəfə bahalaşsın. Onlar camaatın, kasıb xalqın cibinə girib olan-olmazını süpürüb yatırım qoyacaq, qazanacaq, sosial narazılığı da nəzərə almayacaq. Burada oturan deputatlar narazı camaatın qabağına çıxmalı olacaq. Hökumət nümayəndələri, dövlət adamları narazı xalqın qarşısında cavab verməkdə çətinlik çəkəcək. Demirəm ki, qəbul etməyək. Edək, amma indi yox. Heç olmasa, qanunun qüvvəyə minməsi tarixini çəkək 2028-ci ilə. Qanun beş il sonra qüvvəyə minsin. Təklif edirəm ki, ictimai dinləmə keçirilsin, bunu birbaşa qəbul etməyək. Parlamentdə gözəl bir ənənə yaranıb. Maraqlı tərəflərin iştirakı ilə geniş ictimai dinləmə keçirilir. İctimai dinləmə keçirilsin, maraqlı tərəflər fikirlərini əsaslandırsın. Qanunu təqdim edən tərəf, ictimai təşkilatlar, ekspertlər, dövlət idarələri iştirak etsin, suallarımıza cavab versin”.

> “Elektroenergetika haqqında” qanunun bu şəkildə qəbulu ciddi problemlər yarada bilər

**“Niyə bununla bağlı pilot layihə həyata keçirmirik?”**

*Deputat Vahid Əhmədov da qeyd edib ki, bu, sosial sahəyə təsir edən qanundur, ona görə də bu şəkildə qəbul edilməsinə qarşıdır. Onun sözlərinə görə, yeni sənədin icrası Azərbaycanda ciddi problem yarada bilər:* ”Qanun layihəsinin qısa müddətdə qəbul edilməsi ilə vaxtilə fəaliyyət göstərən ”Barmek” şirkətindəki (”Bakıelektrikşəbəkə”nin idarəedicisi) kimi ciddi problemlərlə üzləşə bilərik. Niyə bu qanun layihəsini pilot kimi həyata keçirmirik?! Pilot layihə kimi özünü doğrultsa, sosial sahədə heç bir problem yaranmasa, o zaman layihənin qəbulu müsbət həllini tapar. Odur ki, qanun layihəsinin indi qəbulu tezdir. Layihənin ictimai müzakirəsinə böyük ehtiyac var. Hələlik qanun layihəsinin qəbulu saxlanılsın”.

**“Azərbaycanda son 7 ildə heç bir özəl tekstil müəssisəsi açılmadı”**

*Deputat Fazil Mustafa da qanunun qüvvəyə minmə müddətinin daha gec olmasını vacib hesab edib və bu sahədə öncə pilot layihələr həyata keçirilməsi təklifini dəstəkləyib: ”Nəzarət və tənzimləmə dövlət qurumu tərəfindən həyata keçiriləcək, bu da liberal tənzimləmə deyil, sahibkar investisiya yatırmaqda maraqlı olmayacaq. Qiymətlərin düzgün tənzimlənməməsi nəticəsində Azərbaycanda son 7 ildə heç bir özəl tekstil müəssisəsi açılmadı. Bir neçə il əvvəl Qobustanda xalçaçılıq fabriki açılıb, enerji məsrəflərinə görə bağlandı. Tənzimləmənin düzgün olmaması səbəbindən sahibkar müəssisəni bağlamaq məcburiyyətində qaldı. Elektrik və qaz təchizatının olmaması səbəbindən müəssisə işini dayandırırsa, 10 min manatlarla zərərə uğrayır. Sahibkar məhkəməyə müraciət edirsə, qarşısında dövlət durur.* Ona görə də bu məsələnin peşəkar müzakirəsi yaxşı olardı. Elə bir qanun qəbul edərdik ki, liberal tənzimləməyə yol açsın. Bu qanun yenə də tənzimləmə sahəsində dövlətin əsas sahibi olduğunu əks etdirir”.

*Deputat Elman Nəsirov də qanunla bağlı sosial məqamlara diqqət yetirilməsini vacib sayıb:* ”Xarici şirkətlərin bu sahəyə cəlb edilməsi tarif qiymətlərinə təsir edə bilər”.

**“Bizdə artıq belə ənənə var, dinləmələr...”**

*Deputatlar tərəfindən bir çox ciddi məsələlərin qaldırıldığını qeyd edən Milli Məclis sədri Sahibə Qafarova qanun layihəsi ilə bağlı müvafiq dövlət qurumlarının iştirakı ilə dinləmənin keçirilməsini mümkün sayıb. Spiker, eyni zamanda komitə iclasına da müvafiq dövlət qurumlarının nümayəndələrinin dəvət olunması məsələsinə baxılmasını vacib hesab edib:* ”Layihə ilə əlaqəli çıxışlarda kifayət qədər ciddi məsələlərə toxunulub. Sadiq Qurbanov, üzümü sizə tutub deyirəm, bizdə artıq belə ənənə var ki, çıxış edən deputatlar komitə iclasında bir aya gələrək səsləndirdikləri təklifləri müzakirə edirlər. Eyni zamanda dinləmə keçirilməsi təklif edildi və buna ehtiyac olduğundan keçirə bilərik”.

Qeyd edək ki, qanun layihəsində Azərbaycanda elektrik enerjisinin topdansatış bazarının fəaliyyətini təşkil etmək məqsədilə müstəqil bazar operatorunun yaradılması nəzərdə tutulur.

**İsmayıl Qocayev**

# Müdafiə Nazirliyi xəbərdarlıq edib

## Azərbaycan qanunsuz erməni hərbi ünsürlərinə qarşı zəruri tədbirlər görmək məcburiyyətində qalacaq



Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda Rusiya sülhməramlılarının müşayiəti ilə ermənilərin hərbi təyinatlı daşımaları bir daha təsbit olunub

**Martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda baş vermiş insidentdən sonra Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin bu yoldan hərbi təyinatlı daşımaları həyata keçirmək məqsədilə növbəti dəfə istifadə etməsi Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələrinin texniki müşahidə vasitələri ilə qeydə alınıb.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyi  məlumat yayıb.

Qeyd olunub ki, martın 7-də gün ərzində Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi nəqliyyat vasitələrinin qeyd olunan yoldan kolon şəklində hərəkəti Rusiya sülhməramlı kontingentinin müşayiəti altında təmin edilib. Ermənistanın təkzibinə və riyakarlığına baxmayaraq, texniki müşahidə vasitələri ilə yolun hərbi daşımalar üçün istifadə edildiyi bir daha təsbit olunub.

”Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə hərbi daşımaların həyata keçirilməsi üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulması olaraq qəbuledilməz haldır və dərhal dayandırılmalıdır.

Bir daha bəyan edirik ki, Ermənistan tərəfindən Azərbaycanın Qarabağ iqtisadi rayonunda yerləşən qeyri-qanuni erməni silahlı dəstələrinə silah, sursat, mina, təminat və digər hərbi vasitələrin çatdırılması, eləcə də bu yolla döyüş mövqelərinə şəxsi heyətin daşınması və rotasiyası Azərbaycanın suverenliyinin, üçtərəfli Bəyanatın müddəalarının kobud şəkildə pozulması və Azərbaycana qarşı hərbi təcavüz siyasətinin davam etdirilməsidir. Bu kimi əməllərə dərhal və birdəfəlik son qoyulmasa, Ermənistanın və qanunsuz erməni hərbi ünsürlərinin Azərbaycanın suveren ərazilərində törətdikləri hərəkətlərin qarşısını almaq məqsədilə Azərbaycan tərəfi zəruri tədbirlər görmək məcburiyyətində qalacaqdır.

Baş verən hadisələr Laçın yolu üzərində Azərbaycanın nəzarət rejiminin yaradılmasının zəruriliyini və labüdlüyünü bir daha təsdiq edir”, - MN-in məlumatında deyilir.

# Media subyektlərinin məhsullarının təqdim edilməsi ƏDV-dən azad edilir



**Media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi əlavə dəyər vergisindən azad edilir.**

Bu, Milli Məclisin dünən keçirilən iclasının gündəliyinə daxil edilmiş Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq. Layihə səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.



# Deputat təklif verdi

## Qarabağda da Ombudsmanın regional ofisi yaradılmalıdır

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlament sədri Sahibə Qafarova martın 5-də Xankəndi-Xəlfəli-Turşsu torpaq yolunda Ermənistan tərəfindən növbəti dəfə təxribat törədildiyini, şəhidlərimiz olduğunu deyib.**

Spiker bildirib ki, törədilən hadisə bir daha üçtərəfli bəyanatın yerinə yetirilməsinin vacib olduğunu göstərir. Daha sonra İnsan hüquqları üzrə müvəkkil Səbinə Əliyevanın illik məruzəsi dinlənilib. Ardınca deputatlar məruzəyə münasibətlərini bildiriblər.

**"İnsan haqlarını pozan dövlət orqanlarının siyahısı Ombudsmanın məruzəsində əksini tapmalıdır"**

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, insan haqlarını ən çox pozan dövlət orqanlarının siyahısının Ombudsmanın illik məruzəsində əksini tapması vacibdir. Onun sözlərinə görə, Azərbaycanda QHT sektorunun normativ hüquqi-bazası gücləndirilməlidir: "Son illər hüquqlarını qoruyan insanların sayı artıb. Təəssüflər olsun ki, mənzil-kommunal problemləri azalmayıb. Mənzil alqı-satqısı, o cümlədən kommunal xidmətlərin qiymətlərinin şişirdilməsindən şikayətlər artıb. İnsanları qanunsuz azadlıqdan məhrumetməyə görə məhkəməyə çıxarılan, cəzalandırılan yüksəkvəzifəli şəxslər barədə məlumatların məruzədə əksini tapması da yaxşı olardı".

**"Xankəndidə özünü "Ombudsman" adlandıran şəxsin..."**

Parlamentin komitə sədri Qarabağda Ombudsmanın regional ofisinin yaradılmasını vacib sayıb: "Martın 1-də postkonflikt barış dövrünün tarixi hadisəsi baş verdi. Konstitusiyaya uyğun olaraq Xocalıda təşkil olunan görüş Xankəndidə yaşayan ermənilərlə birgəyaşayışa dair "Sərsəng" su anbarı ilə bağlı təmaslardan sonra ilk addım sayıla bilər. Belə vəziyyət, Ombudsman İnstitutunun fəaliyyətinin coğrafiyasını genişləndirməklə yanaşı, reinteqrasiya istiqamətində həyata keçirilən tədbirlərdə aktivliyini tələb edəcək. Son lokal toqquşma separatçı qalıqları mülki insanlardan ayırmaq hadisəsidir. Ümidvarıq ki, danışıqlar davam etdiriləcək. Xankəndidə özünü "Ombudsman" adlandıran şəxsin təqdim etdiyi 2022-ci il üzrə hesabat 300 səhifəyə yaxındır. Hesabatın 12-ci bölməsi erməni xalqının hüquqlarının pozulması, müdafiəçinin bəyanatları və fövqəladə hesabatlar adlanır. Orada dağıdılan abidə və yaşayış məskənlərindən bəhs olunur. Lakin 30 illik işğalın mirasından bir cümlə də yoxdur. Qanunlara hörmətlə yanaşan ermənilərin hüquqlarının təminatı ilə bağlı mesajların verilməsi, gələcəkdə o bölgədə regional ofisin yaradılacağı bəyanatı Xankəndidə "Ombudsman" adı ilə siyasətə alət edilən şəxsin hesabatlarına da son qoyardı".

**"İnsan hüquqları üzrə beynəlxalq qurumlarla düşmənçiliyə son qoyulmalıdır"**

Zahir Oruc vurğulayıb ki, Azərbaycanda hüquq müdafiəçilərinin fəaliyyətinin normativ bazası gücləndirilməlidir: "Azərbaycana qarşı xarici hücumların əsas silahına çevrilən, insan hüquqları üzrə beynəlxalq qurumlarla on illərdir davam edən düşmənçilik münasibətlərinə son qoyulmasına ehtiyac var. Vətən müharibəsi zamanı iki beynəlxalq qurum, nəhayət, ölkəmizə qayıtdı, iki obyektiv sənəd hazırladı. "Human Rights Watch" və "Amnesty International"ın məramı nə olsa da, problemlərin obyektiv müzakirəsi, nəhayət, soyuq müharibəyə son qoyardı".

**"Naxçıvanda Ombudsman İnstitutu ləğv edilməlidir"**

Millət vəkili Fazil Mustafa deyib ki, Naxçıvanda Ombudsman İnstitutu ləğv edilməlidir. Onun sözlərinə görə, unitar dövlətdə bir Ombudsman təsisatı olmalıdır: "Ancaq Naxçıvanda ayrı Ombudsman İnstitutu var. Eyni zamanda Qarabağda biri özünü qondarma "Ombudsman" elan edib. İndiki mərhələdə Naxçıvanda Ombudsman İnstitutu ləğv edilməlidir. Bu, unitar dövlət prinsipinə də ziddir. Naxçıvanda hüququ pozulanlar Ombudsman Səbinə Əliyevaya müraciət edə bilmirlər. Bu problem həllini tapmalıdır".

Deputat Etibar Əliyev isə qeyd edib ki, Ombudsmanın məruzəsinə əlavə məlumatlar yüklənib: "Bu isə məruzənin keyfiyyətini aşağı salır". Onun sözlərinə görə, Ombudsmanın hesabatında şəffaflıqla bağlı nöqsanlar var: "Ombudsmanın məruzəsində qanuni fəaliyyət göstərməyən qurumlarla bağlı ümumi məlumat verilib. Amma bu qurumların adları açıqlanmır. Məruzənin bəzi hissələri keçən ilin məruzəsinin bir hissəsinin təkrarıdır. Təhsil və elm sahəsilə bağlı şikayətlər var. Təəssüf ki, alimlərin problemləri həll edilmir".

**"Hər birimizi narahat edən ciddi çatışmazlıqlar var..."**

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, Ombudsmanın illik məruzəsi ilə yaxından tanış olub və bu tanışlıq əminliklə deməyə əsas verir ki, ölkəmizdə hüquq və azadlıqların qorunması, vəzifəli şəxslər tərəfindən qanunlara ciddi əməl olunması ilə bağlı böyük və hər birimizi narahat edən çatışmazlıqlar var. Millət vəkili əlavə edib ki, bunun üçün ölkədə ciddi məhkəmə hüquq islahatlarının aparılmasına ehtiyac duyulur: "Yeni Ombudsmanın fəaliyyəti ilə bu nöqsanları aradan qaldırmaq mümkünsüzdür. Ombudsman Səbinə Əliyeva qeyd elədi ki, müəyyən qanunvericilik aktlarına dəyişikliklər etmək lazımdır. Milli Məclis problemlərin həll olunduğu yer deyil. Burada əsasən problemlər səsləndirilir. Ona görə də Ombudsman daha yaxşı olardı ki, mərkəzi icra hakimiyyəti orqanları ilə işləsin və onlardan gələn qanunları, Ombudsmanı əmin edirəm ki, biz burada təsdiq edib geri qaytaracağıq. Məni narahat edən məsələ məhkəmə-hüquq islahatlarının dərinləşdirilməməsi ilə bağlıdır. Baxmayaraq ki, cənab Prezident bununla bağlı xüsusi fərman imzaladı. Amma o islahataların mahiyyəti onunla yekunlaşdı ki, iqtisadi məhkəmənin adı dəyişdirildi, kommersiya məhkəməsi adlandı. Bununla da sanki məhkəmə-hüquq islahatları başa çatdı. Məhkəmə-hüquq islahatları kadr islahatları ilə başlanmalı idi".

**"Ədliyyə sisteminə yeni nəfəs verilməlidir"**

Millət vəkili əlavə edib ki, ədliyyə sisteminə yeni nəfəs verilməlidir: "Biz vaxtilə məhkəmə ekspertizası haqqında qanun qəbul elədik. Özəl məhkəmə ekspertlərinin yaradılmasına yaşıl işıq yandırdıq. Amma bu günə qədər bu istiqamətdə heç bir ciddi addım atılmayıb. Dəfələrlə Parlamentdə məsələ qaldırmışam ki, Azərbaycanda ibtidai həbs müddətinin uzunluğu təqribən 1 il 9 aydır. Bu, olduqca böyük bir zamandır. Əgər kifayət qədər əsaslar yoxdursa, şəxs niyə həbs olunur? O zaman sübutlar toplanmalıdır. Yox əgər kifayət qədər sübutlar toplanıbsa, onda şəxs həbs olunandan sonra istintaq niyə bu qədər davam edir? Ona görə də düşünürəm ki, bu istiqamətdə fundamental dəyişikliklər edilməlidir. Azərbaycanda istintaq aparan 8 orqan var. Hər orqan özünə istintaq idarəsi yaradıb. Yəni elə təəssürat yaranır ki, Azərbaycanda az qala elə bir nazirlik, xidmət yoxdur ki, özünün istintaq orqanı olmasın. Yəni vahid Dövlət İstintaq Komitəsi yaradılmalıdır".

**"Sahibkar Gəncədə özünə bir restoran tikib, amma onun çıxarışını ala bilmir"**

Millət vəkili həmçinin bildirib ki, məhkəmə süründürməçiliyi ilə bağlı məsələlərə nəhayət ki, son qoyulmalıdır: "Xatırlayırsınızsa, mən Ombudsmanın ötən hesabatı zamanı Gəncədə inzibati məhkəmə ilə bağlı bir məsələ qaldırmışdım ki, Rusiyada fəaliyyət göstərən bir sahibkar Gəncədə özünə bir restoran tikib, amma onun çıxarışını ala bilmir. Çıxarış məsələsi nədir ki, məhkəmədə o, bir il iki ay süründürülür. Məhkəmə hər iki aydan bir iş heç bir əsas göstərilmədən təxirə salınır. Bu günlərdə mən AZƏRTAC-ın müxbiri Aygün Əliyeva ilə bağlı da bir məsələ qaldırmışdım. 2020-ci ilin oktyabrından bu şəxs işə bərpa ilə bağlı məhkəməyə müraciət edib. 2 ildən artıq vaxt keçməsinə baxmayaraq, məsələ bu günə qədər öz həllini tapmayıb. Sadə bir məsələdir, yəni çoxepizodlu bir məsələ deyil. Ona görə də məhkəmə süründürməçiliyinin qarşısı alınmalıdır. Bu istiqamətdə qanunvericiliyə ciddi dəyişikliklər edilməlidir. Andlı iclaslar institutu Azərbaycanda bərpa olunmalıdır. Vaxtilə bu, bizim qanunvericiliyə daxil edilmişdi. Məhkəmələr çalışırlar ki, daha çox qanuna əsaslanan qərarlar qəbul etsinlər. Baxmayaraq ki, konstitusiyada yazılıb ki, ilk növbədə, qərarlar, hökmlər, qətnamələr ədalətli olmalıdır. Ədalətli və qanuna əsaslanan qərarlar. Bunu yalnız andlı iclaslar institutu həyata keçirə bilər. Mən hesab edirəm ki, insan hüquq və azadlıqları ilə bağlı Ombudsmanın görə biləcəyi iş azdır. Onun üçün güclü məhkəmə hakimiyyəti yaradılmalıdır. Biz də əsas diqqətimizi bu sahəyə yönəltməliyik".

**İsmayıl Qocayev**

# AZAL təyyarə biletlərinin qiymətlərini dəyişmir

## Heç olmasa, tələbələrin quru sərhəddən keçməsinə şərait yaradılmalıdır

**"Sərhədlərin bağlı olması azad hərəkət etmək hüququnu məhdudlaşdırır. Türkiyədə zəlzələdə həlak olan tələbələrin valideynlərinin çıxışlarının şahidi olduq".**



Bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa bildirib. Parlament üzvü deyib ki, təyyarə qiymətlərinin bahalığına görə tələbələrimiz tətilə gələ bilmədilər, zəlzələdə həyatlarını itirdilər: "Azərbaycan Hava Yolları (AzAL) bilet qiymətlərini istədiyi kimi müəyyənləşdirir. Bu, çox acınacaqlı durumdur. Bu durumun aradan qaldırılmasına Ombudsman necə təsir edə bilər? Dövlət səviyyəsində bu məsələnin həllinə nail olmalıyıq. Ən azı tələbələrin quru sərhəddən keçməsi üçün şərait yaradılmalıdır. Tələbələrin xaricdən ölkəmizə daha məqbul qiymətlə gəlib-getməsi vacibdir. Heç olmasa, tələbələləri AZAL-ın yanlış siyasətinə qurban verməyək. Başa düşürük, AZAL göydən düşüb, onun fəaliyyətinə müdaxilə etmək olmur. Lakin heç olmasa, tələbələrin gəlib-getməsinə şərait yaradaq. Ötəndəfəki çıxışımızda da AZAL-ın təyyarə biletlərinin qiymətlərinin azaldılması ilə bağlı məsələ qaldırmışdıq. Amma hələ də nəticə yoxdur. Hər bir vətəndaşın ölkəyə qayıtmaq hüququ var".

**İsmayıl**

# "Rəsmi Bakıya Dehlinin silah qərəzi var"

## Nazir müavininin bu ölkəyə səfəri əlaqələrin müsbət müstəviyə keçməsi fürsəti yaradır

**"Ermənistanla münasibətlər kontekstində Hindistan platformasında iştirakımız vacibdir. Azərbaycan Pakistanla yaxın əlaqələr qurduğuna görə Hindistandan ciddi zərbələr gəlməkdədir".**



*Bunu "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə şərhçi Əziz Əlibəyli deyib.*

Ekspertin qənaətincə, Azərbaycan Hindistanla münasibətləri mütləq qaydaya salmalıdır: "Ölkəmiz əleyhinə formalaşdırılması nəzərdə tutulan Ermənistan-İran-Hindistan koridoru var. Ermənistan cəbhəsində Hindistanın iştirakına yol verilməməlidir. Xarici işlər nazirinin müavini Elnur Məmmədovun Hindistana səfəri əlaqələrin müsbət müstəviyə keçməsindən ötrü fürsəti dəyərləndirməkdir.

Azərbaycan həqiqətlərini dünya, eləcə də Hindistan ictimaiyyətinə çatdırmalıdır. Azərbaycanda Hindistan mədəniyyətinə sevgi mövcuddur. Yumşaq diplomatiyadan istifadəyə ehtiyac duyulur. Güman ki, görüşün mühüm hissəsi Hindistanın mədəniyyət elitası ilə əlaqədar olub. Bu, Azərbaycanın hücum diplomatiyasının tərkib hissəsidir".

*Qeyd edək ki, martın 3-5-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Raisina Dialoq Forumunda iştirak üçün Hindistan Respublikasına işgüzar səfər edib. Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələri Hindistanı narahat edir. Dehlinin Bakıya "silah" qərəzi, yəni Ermənistanı silahlandırması da diqqətdən yayınmır.*

**Aygün Tahir**

# Qarabağda təxribatların törədiləcəyini gözləyirdik

## Yenə də lokal xarakterli döyüşlər və antiterror əməliyyatları istisna olunmur

**"Biz Ermənistanın adı ilə onun havadarları tərəfindən bölgədə gərginliyi qoruyub saxlamaq üçün müəyyən təxribatların törədiləcəyini gözləyirdik. Bu gün isə məhz həmin addımla qarşılaşırıq".**



"Biz hadisənin arxasındakı gücləri müəyyən etmək üçün, Ermənistan ordusu üzərində kimin söz haqqı olduğuna baxmalıyıq"

*Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı deyib.*

O bildirib ki, baş verənlər Ermənistandan istifadə edərək qazanclı çıxacaq qüvvələrin adına yazılmalıdır: "Biz hadisənin arxasındakı gücləri müəyyən etmək üçün Ermənistan ordusu üzərində kimin söz haqqı olduğuna baxmalıyıq. Yalnız onlar bölgədə belə gərginliklər yarada biləcək gücə sahibdirlər. Həmin qüvvələrin məqsədi isə bizə məlumdur. Onlar Cənubi Qafqazda öz təsir güclərini qorumaq üçün prosesi uzatmağa məcburdurlar.

Çünki sülh müqaviləsinin indiki şəraitdə bağlanacağı təqdirdə, həm Ermənistan Qarabağdakı maraqlarından imtina etmək məcburiyyətində qalacaq, həm də separatizm birdəfəlik məğlubiyyətə düçar olacaq. Bunu istəməyən Rusiya və İran kimi dairələr isə proseslərin uzanmasında maraqlıdırlar".

**Ekspert vurğulayıb ki, Nikol Paşinyan iqtidarının bölgədə təcridlərin artmasından yana olduğunu düşünmür:** "Onlar Ermənistan ordusunun hələ tam şəkildə özünə gəlmədiyinin və hərbi-texniki cəhətdən Azərbaycandan zəif olduqlarının fərqindədirlər. Bunların fonunda Ermənistanın Azərbaycana yeni müharibəyə başlaması axmaqlıq olardı. Eyni zamanda biz nəzərə almalıyıq ki, Paşinyanın hazırkı məqsədi Qərb dövlətləri ilə əlaqələrini artıraraq İrəvanı Moskvanın təsir dairəsindən uzaqlaşdırmaqdır.

Bu fonda təxribatların böyük bir müharibəyə çevriləcəyini demək olmaz. Təbii ki, lokal xarakterli döyüşlər və antiterror əməliyyatları gözlənilir. Ona görə ki, rəsmi Bakı bunu etməyə erməni havadarları tərəfindən məcbur qoyulub. Belə olduğu halda Qarabağda yekun nəticələrə aparan yolun təmin edilməsini gözləyə bilərik. Yəni rəsmi Bakı həmin lokal xarakterli antiterror əməliyyatlarını işə salaraq öz gücünü yenidən göstərəcək və 2020-ci ildən bəri bölgədə tək söz sahibinin Azərbaycan olduğunu xatırladacaq. Bütün bunlar isə sülh müqaviləsinin imzalanmasında öz effektiv nəticələrini verəcək".

*Qeyd edək ki, martın 5-də səhər saatlarında qeyri-qanuni erməni birləşmələrinin törətdikləri təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları Əlibəyli Şəhriyar Ramiz oğlu və Hüseynov Eşqin Cəmil oğlu şəhid olublar.*

**Nihat**

# Yaşamaq icazəsi ancaq pula bağlanmamalıdır

## Sabir Rüstəmxanlı qanun layihəsinə yenidən baxılmasını tələb edir

**"Məni narahat edən qanun layihəsində Azərbaycanda oturum, müvəqqəti yaşamaq icazəsinin alınmasının yalnız pula bağlanmasıdır".**



Bunu Milli Məclisin dünənki iclasında "Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı deputat Sabir Rüstəmxanlı bildirib. Deputat deyib ki, Güney Azərbaycandan olan soydaşlarımız arasında ictimai işlərlə və digər məqsədlərlə Azərbaycana gəlib, bir neçə il yaşamaq istəyənlər ola bilər: "Ona görə də qanunda bu məsələlər əksini tapmalıdır, yaşamaq icazəsi ancaq pula bağlanmamalıdır. Qanun layihəsi çox mürəkkəb formada yazılıb, bunu oxumaq, köhnə qanunla müqayisə edərək anlamaq iynə ilə gor qazmaq kimi bir şeydir. Bu qanunla bağlı normal arayış hazırlanıb təqdim edilsə, daha yaxşı olardı".

**İsmayıl**



# Türkiyədə gərgin seçki gözlənilir

## Mübarizə Ərdoğanla Kılıçdaroğlunun arasında keçəcək

**Türkiyənin müxalifət koalisiyası olan "Millət İttifaqı" prezidentliyə namizədinin adını açıqlayıb. Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlunun namizədliyi rəsmən elan edilib. Bu barədə "altılı masa"nın son toplantısında qərar qəbul olunub. Altı lider səhnəyə birlikdə çıxıb və qərarı Səadət Partiyasının sədri Təməl Karamollaoğlu açıqlayıb. O, "Millət İttifaqı"nın namizədinin Kamal Kılıçdaroğlu olduğunu elan edib:**

"Sizi daha çox gözlətmək istəmirəm. Toplantılarımız nəticəsində aldığımız qərarı elan edirəm. Kamal Kılıçdaroğlu bizim prezidentliyə namizədimizdir". Beləliklə, prezidentlik uğrunda əsas mübarizənin Rəcəb Tayyib Ərdoğan və Kamal Kılıçdaroğlu arasında keçəcəyi dəqiqləşib. Qeyd edək ki, Türkiyədə prezident və parlament seçkiləri 14 may tarixində keçiriləcək. Məlumat üçün deyək ki, İYİ Partiyanın sədri Meral Akşener müxalif koalisiyanın son iclasında CHP lideri Kamal Kılıçdaroğlunun vahid namizəd olmasına etirazını bildirmişdi. O, Ankara və ya İstanbul bələdiyyə sədrlərindən birinin namizəd olmasını istəyirdi. Bələdiyyə başqanları Mansur Yavaş və Əkrəm İmamoğlu ötən gün Akşeneri ziyarət edərək, onu "altılı masa"ya qayıtmağa razı salıb. Akşener Ankara və İstanbul bələdiyyə sədrlərinin vitse-prezident olma şərti ilə Kılıçdaroğlunun namizədliyinə razılıq verib.

Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı partiyasının qrup toplantısında gündəmi dəyərləndirib. O, yenidən "altılı masa"ya qayıdan İYİ Partiya sədri Meral Akşenerə sərt sözlər deyib: "Bir ildir oturduqları masanı əvvəlcə qumar masası, kiçik hesablar masası adlandırıb, sonra yenidən əyləşənlər çox prinsipsiz şəxslərdir. Qalib gələ bilməyəcəyini deyən prezidentliyə namizədin yanında dayanmağın başqa adı yoxdur. Çürük siyasətin prinsipsizliyidir. Mövqe danışıqları ilə masa arxasına əyləşən İYİ Partiya sədri ağır sözlərinin altından necə qalxacaq? Millətin üzünə utanmadan necə baxacaq? Bir dəfə satan yenə satar! Millətimiz və Türkiyə belə bir müxalifətə layiq deyil. Masada otura bilməyənlərin 85 milyona

> Ən pis halda ikinci tura gedə bilərlər ki, burada da mövcud hökumət daha şanslı görünür

xidmət etməsi üçün siyasi mövqe sərgiləməsi gözləmək əbəs gözləntidir". Prezidentliyə namizədliyi rəsmən açıqlanan Kamal Kılıçdaroğlu yeni həmləsi ilə diqqət mərkəzindədir. Onun Xalqların Demokratik Partiyasını (HDP) ziyarət edəcəyi açıqlanıb. CHP-nin sədr müavini Özgür Özəl "Habertürk" telekanalının canlı yayımında bu barədə danışıb. O, HDP-nin dəvətini müsbət dəyərləndirib: "Ölkəni idarə edəcək bir prezidentliyə namizədin hər siyasi partiyanı ziyarət etməsi, edəcəklərini anlatması son dərəcə normaldır. Belə bir ziyarət ehtimalı da mövcuddur. HDP 6 milyon səs toplamış bir siyasi partiyadır. Onu yox saymaq, görməzdən gəlmək olmaz. Mən də HDP-ni daha əvvəl ziyarət etmişdim. Yenə də ziyarət oluna bilər".

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov bildirib ki, Meral Akşener məsələsi hələ tam olaraq dəqiq bilinmir. Seçkilərdə başqa namizədlərin adları qətiləşmək üzrədir. Bu isə Məmləkət Partiyasının rəhbəri Məhərrəm İncədir:** "Digər bir namizədin olacağı ehtimalı da artmaqdadır. Bu isə Sinan Oğandır. Sinan Oğan millət vəkili olaraq fəaliyyət göstərdiyi dönəmlərdə daha aktiv siyasətə qatılsa da, son zamanlar mediadan uzaqlaşdığı hiss edilməkdədir. Sinan Oğan türk millətçilərinin müstəqil prezidentliyə namizədi kimi seçkiyə getdiyini elan edir. Görünən odur ki, səslərin parçalanması artacaq. Kamal Kılıçdaroğlunun kimliyi də son zamanlar cəmiyyət və mediada sorğulanmaqdadır. Fikrimcə, Məhərrəm İncənin 2018-ci ildə "Millət İttifaqı"nın və CHP-nin vahid namizədi olmasına baxmayaraq, CHP-dən ayrılaraq Məmləkət Partiyasını qurması və bu seçkilərə qatılmaq qərarı CHP-nin səslərini ciddi şəkildə parçalaya bilər. Ona görə ki, Məhərrəm İncə Kamal Kılıcdaroğlundan və digər "altılı masa" nümayəndələrindən daha xarizmatik siyasətçidir və demək olar ki, CHP tərəfdarlarının ona ciddi simpatiyası var. Bu da səslərin parçalanması deməkdir. Görünən odur ki, seçkidə prioritet namizəd Rəcəb Tayyib Ərdoğandır. Hər vəziyyətdə Türkiyədə gərgin seçkinin olacağı açıq şəkildə görünməkdədir".

**S.Hümbətov bildirib ki, mövcud iqtidar son 20 ildə Türkiyənin həm daxili, həm də xarici siyasətini demək olar ki, yenidən formalaşdırdı:** "Türkiyə daxilində terrorun minimuma endirilməsi, Cənubi Qafqaz, Mərkəzi Asiya, Balkan yarımadası, Yaxın Şərq və Şimali Afrikada, Şərqi Aralıq Dənizində mövqelərin möhkəmlənmə, Türk Dövlətlər Təşkilatını qurması, Türkiyənin özünəməxsus müdafiə sənayesini qurması və inkişaf etdirməsi və digər məsələlər Qərb dövlətləri, xüsusilə də ABŞ ilə müzakirə edilmədən reallaşdı. Nəticədə Ərdoğan hökuməti Qərb üçün arzuolunmaz qəbul edilməyə başlanıldı. Hazırda Qərb dövlətləri mövcud iqtidarın hakimiyyətdən getməsi üçün bütün mümkün imkanlardan istifadə etməyə çalışır. Türkiyədə mövcud hökumət daha çox islamçı və millətçi ideologiya üzərində qurulub. Hökumət həm dindar, həm də millətçi kəsimdən dəstək almağı bacarır. Bu isə o deməkdir ki, mövcud hakimiyyət cəmiyyətin böyük hissəsinə nüfuz edir. Seçkilərdə böyük möcüzələr gözləməyə dəyməz. Güman ki, nəticə 50 faizin üzərində olacaq. Ən pis halda ikinci tura gedə bilərlər ki, burada da mövcud hökumət daha şanslı görünür".

**İsmayıl Qocayev**

# Azərbaycanda koronavirusla bağlı məsələ artıq bitib

## Üzü yaya doğru gedirik, yayda rəqəmlər sıfıra enəcək




**Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə təmas qrupunun zirvə görüşünə videoformatda qoşulan Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus pandemiyanın bitməsi ilə bağlı məlumat verib: "Pandemiya bitir. İndi hər bir ölkə öz üzərinə düşəni etməli, gələcək pandemiyalara hazırlıqlı olmalı və pandemiyadan sonrakı bərpada iştirak etməlidir".**

Azərbaycanda da son ayların və həftələrin statistikasına görə, ölkəmizdə virusa yoluxanların sayında ciddi şəkildə azalma var. Əksər infeksionistlər bildirirlər ki, pandemiyanı artıq bitmiş hesab etmək olar. Çünki insanlar arasında artıq həm təbii, həm də vaksinasiya yolu ilə süni şəkildə immunitet formalaşıb. Koronavirus da artıq getdikcə digər viruslar kimi mövsümi xarakter almağa başlayır. Elədirsə, Azərbaycanda quru sərhədlərin açılması üçün maneə qalmır. Bəs xüsusi karantin rejimi ləğv olunacaqmı? Yeri gəlmişkən, Azərbaycanda xüsusi karantin rejiminin müddəti mayın 1-nə qədər uzadılıb.

**İnfeksionist Mərdan Əliyevin "Şərq"ə açıqlamasına görə, hələ də Asiya ölkələrinin, Çin, Tayvan, Şərq ölkələrində hələ də virusa yoluxmalar var, çox ciddi karantin rejimi tətbiq olunur. Amma bu artıq dünyada COVİD 19-la bağlı pandemiya riski yaratmır:** "Əslində bir çox ölkələrdə pandemiyanın bitməsi ÜST tərəfindən elan edildi. Hər hansı bir virusun pandemiya adlandırılması üçün xüsusi göstəricilər var və demək olar ki, koronavirusla bağlı həmin göstəricilər sonlanıb. Pandemiya yoluxucu xəstəliyin (məsələn, vəba, taun, qrip) bütün bir ölkəni, eyni zamanda onunla həmsərhəd ölkələri, bəzən çoxlu sayda ölkəni, qitələri bürüməsi mənasını verir. Bu gün isə bütün dünyada COVİD 19-a yoluxma sayı xeyli dərəcədə azalıb. Statistik göstəricilərdə artım müşahidə edilmir.

Çin, Tayvan kimi ölkələrdə karantin rejimi aktualdır. Bunun da səbəbi odur ki, onlar virusun ilk dönəmlərində kollektiv immunitet yarada bilmədilər. Karantin rejimi yumşaldılan kimi koronavirusa yoluxma sayı artır. Azərbaycan da daxil olmaqla əksər ölkələrdə isə əhalinin virusa qarşı kollektiv immuniteti formalaşıb. Buna həm insanların böyük əksəriyyətinin azı bir dəfə COVİD 19-a yoluxması, həm də peyvəndləmə nəticəsində nail olunub.

Hazırda Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxşdir. Koronavirusla bağlı artıq məsələ bitib. Yoluxma sayında artma yoxdur. Statistik göstəricilərdə çox az rəqəmlər var. Bu da onu göstərir ki, koronavirusla bağlı vəziyyət həll olunub. Eləcə də yaya doğru gedirik, yayda artıq rəqəmlər sıfıra enəcək".

Pandemiyanın bitməsinə rəğmən Azərbaycanda xüsusi karantin rejiminin davam etməsinə gəldikdə isə ekspert deyib ki, pandemiyanın bitməsi infeksiyanın sıfırlanması demək deyil: "Epidemiya zamanı da müəyyən ölkələrdə gündəlik sabit yoluxma sayı müşahidə olunur. Azərbaycanda xüsusi karantin rejiminin vaxtı uzadılanda ÜST pandemiyanın bitməsini elan etməmişdi. Amma hesab edirəm ki, müəyyən olunmuş vaxt bitdikdən sonra xüsusi karantin rejimi də ləğv ediləcək".

**Şəymən**

# Paşinyanın növbəti demaqoq hücumu baş tutmayıb

## Azərbaycan Parlamentində milli azlıqların təmsilçiləri Ermənistandakından dəfələrlə çoxdur



**Almaniyaya səfər edən Ermənistan Baş naziri Nikol Paşinyan Berlində Ermənistan dövlətinin monoetnik mahiyyətini gizlətmək üçün Parlamentdə 4 etnik azlığın (ruslar, kürdlər, yezidlər, asurlar) nümayəndələrinə seçkilərdə iştirak etmədən bir mandat verildiyini misal çəkib.**

Azərbaycanı ittiham edən Baş nazir Ermənistanda etnik azlıqlara "yüksək hüquq və azadlıqlar", "xüsusi səlahiyyətlər" verildiyini iddia edib. Qeyd edək ki, Azərbaycanda etnik icmaların nümayəndələri Parlamentdə seçki proseduru ilə digər vətəndaşlarla bərabər şəkildə təmsil olunurlar. Aralarında rus, yəhudi, ləzgi, kürd, talış və başqaları var. Onlar həmçinin Konstitusiya və Ali Məhkəmədə, Prezident Administrasiyasında, rayon və şəhər icra hakimiyyəti başçıları arasında, bələdiyyə şuralarında və digər bütün strukturlarda da təmsil olunurlar. Hər zaman olduğu kimi Paşinyanın növbəti demaqoq hücumu da baş tutmayıb.

**Deputat Sahib Alıyev deyib ki, Paşinyan "qaş düzəltdiyi yerdə göz çıxarıb". Parlament üzvü baş nazirin iddialarının saxtalığını arqumentlərlə ortaya qoyub:** "Bizim Parlamentdə milli azlıqların təmsilçiləri Ermənistandakından dəfələrlə çoxdur. Bu reallıq heç də Ermənistandakı kimi gözə kül üfürmək məqsədilə, yəni onlara ayrıca mandat ayrılması nəticəsində yaranmayıb. Bu, Azərbaycanda tolerantlığın təkcə dövlət siyasəti deyil, həm də həyat tərzinə çevrilməsi, etnik və dini kimliyə fərq qoyulmaması səbəbindən meydana çıxan və yetkin millət kimi formalaşmış cəmiyyətlərə xas konfiqurasiyadır. Ermənistanda belə bir reallıq olmayıb, indi də yoxdur və uzun müddət gözlənilmir. Paşinyan etnik azlıqlardan hərəsinə parlamentlərində bir mandat ayrılmasını "humanistlik" kimi təqdim edə bilər. Əslində isə bu, sivillikdən, demokratik seçki prinsipindən və ədalətdən tam uzaq haldır. Çünki Ermənistanda yezidilərin sayı aysorulardan 13 dəfə çox olduğu halda, Parlamentdə hər ikisi ancaq bir deputatla təmsil edilir. O baxımdan azərbaycanlıların Qərbi Azərbaycandakı yurd yerlərinə geri dönüşü Ermənistan Konstitusiyasının da dəyişməsini zəruri edir. Qayıdışdan sonra Ermənistan Parlamentində ən azı hər on nəfərdən biri azərbaycanlı olacaq. O da hələ ilk dövrlərdə. Sonrasını isə zaman göstərəcək".

**İsmayıl**



# Ermənistan etiraz edə bilməyəcək

## Azərbaycan ABŞ və Brüsseldən Laçın yolunda gömrük postu ilə bağlı dəstək alıb

**İrəvanda səfərdə olan ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşüb. Tərəflər Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesini müzakirə ediblər.**

Eyni zamanda Laçın yolundakı vəziyyətə dair fikir mübadiləsi aparılıb. Xatırladaq ki, Amerikanın Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono İrəvandan qabaq Bakıda səfərdə olub və Azərbaycan Prezidenti ilə görüşüb. Bono Bakıda vurğulamışdı ki, Ağ Ev Ermənistan və Azərbaycan arasında uzunmüddətli sülhün təmin edilməsinin tərəfdarıdır. Qeyd etmişdi ki, Azərbaycan və Ermənistan arasında əlaqələrin qurulması ABŞ üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin Vaşinqtonun Azərbaycanın Laçın yolunda təhlükəsizliklə bağlı maraqlarını və narahatlığını anladığını vurğulamışdı. Məlumat üçün bildirək ki, Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar da martın 6-da Prezident İlham Əliyevin qəbulunda olub. Görüşdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, ABŞ Azərbaycanın Laçın dəhlizində nəzarət buraxılış məntəqəsi və gömrük postu qurmasını dəstəkləyir. Analitikin fikrincə, Qarabağda terrorçu rejimin başçısı Araik Arutyunyan təxribatlarından sonra Ermənistandan hərbi yardım istəyib:** "Arutyunyan məhz Rusiyanın təlimatı ilə Ermənistandan hərbi yardım istəyir. Kreml Qərbin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin pozulmasına çalışır. Paşinyan Almaniyaya səfərində Azərbaycanla sülh müqviləsinə hazır olduqlarını söyləmişdi. Azərbaycan məhz Vaşinqton-Brüssel vasitəçiliyinə etimad edir. Rusiyanıın iştirakı ilə ermənilərlə təmaslar manipulyasiyadır və Kreml sabotajla məşğuldur. Bunun heç bir perspektivi yoxdur. Azərbaycan özü birbaşa təmaslara getməlidir. ABŞ dövlət katibi və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Azərbaycanın Laçın dəhlizində nəzarət buraxılış məntəqəsinin qoyulmasına etiraz etmədiklərini dedilər. Laçın yolunda postların qurulması Fransanın "humanitar missiya" adı altında Xankəndiyə girməsinin qarşısını da alacaq. Demək olar ki, Azərbaycan ABŞ və Brüsseldən Laçın yolunda gömrük postu ilə bağlı dəstək alıb. Prinsipcə, Ermənistan da etiraz edə bilməyəcək. Rusiyanın etirazları isə nəzərə alınmamalıdır".

**İsmayıl**

# İran uzun illər ərzində ölkəmizdə çoxlu "minalar" basdırıb

## Bu prosesə hüquq-mühafizə orqanlarımız çox ciddi hazır olmalıdır



> "Peşəkar səviyyədə bütün potensial təhlükə mənbələri ən qısa müddətdə üəyyənləşdirilərək zərərsizləşdirilməlidir"

**"Proseslərin təhlili göstərir ki, Azərbaycan-İran münasibətlərinin gərginləşməsi fonunda İran geriyə addım atmaq niyyətində deyil". Bu barədə millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, bu gün əsas hədəf və niyyət müxtəlif yollarla Azərbaycana təzyiqləri artırmaq, Azərbaycanın mövqeyinin dəyişməsinə nail olmaqdır:**

"Bu məqsədlə İran bir neçə istiqamətdə ciddi iş aparır. İran Azərbaycanda dini fəaliyyət sahəsində cərəyan edən proseslərə təsir imkanlarını daha da gücləndirmək üçün bütün potensialını ortaya qoyub. Əvvəl də qeyd etmişdim ki, mərhum Hacı Şahinin bir sıra məsələlərdə Azərbaycan hökumətinin mövqeyini dəstəkləməsi, səfirliyə təşkil olunan hücumu pisləməsi İran rəsmi dairələrində çox ciddi qıcıq doğururdu. İranın yanaşması belə idi ki, Hacı Şahinin bu mövqeyi Azərbaycan şiələrinin dövlətə qarşı vahid mövqedən çıxış etməsinə mane olur. Ona görə tez-tez Hacı Şahin bir sıra dini qrupların hədəfinə çevrilərək "xəyanətdə "və "hakimiyyətə işləməkdə" günahlanıdırlırdı. Bu təbliğat, ona qarşı psixoloji təzyiqlər son illər davamlı xarakter almışdı. İran yenidən Hacı Şahinin dünyasını dəyişməsindən istifadə edərək Azərbaycan şiələrinin hakimiyyət əleyhinə vahid mövqe nümayiş etdirməsinə nail olmaq üçün bütün gücünü və potensialını ortaya qoyub. Yeni tezis isə belədir. Bütün ixtilaflar kənara qoyulmalı, Azərbaycan dövlətinə qarşı müqavimət gücləndirilməlidir. Burada həm də yeni taktikadan istifadə olunur".

**C.Məmmədov vurğulayıb ki, əvvəlki dövrlərdə Hacı Şahini sərt tənqid edən qruplar indi yeni yanaşma nümayiş etdirirlər:** "Onun elektoratını ətraflarına toplamaq üçün ona rəhmət oxuyur, dünyasını dəyişməsinə sevinmədiklərini, bütün şiələrin vahid mövqe nümayiş etdirməsinin vacib olduğunu israrla qeyd edirlər.

Biz nə etməliyik? Dini fəaliyyət sahəsində islahatları daha da sürətləndirməliyik. Ən qısa müddətdə Məşədi Dadaş məscidinə mötədil mövqeyə malik nüfuzlu şiə din xadimi təyin etməliyik. Eyni zamanda bu prosesi Bakıda və bölgələrdə fəaliyyət göstərən digər şiə məscidlərində də sürətləndirməliyik. Əks halda sonrakı günlərdə prosesləri idarə etmək çox çətin olacaq. Hazırkı məqamda hadisələri qabaqcadan proqnozlaşdırmaq və qarşısını almaq çox önəmlidir. Paralel olaraq İran Azərbaycanla bağlı hədəflərinə nail olmaq üçün bir neçə istiqamətdə də ciddi iş aparır. Yeni planlardan biri də daxildə sabitliyi pozmaq və Azərbaycanın güclənməsinin qarşısını almaq üçün müxtəlif yerlərdə ardıcıl terror hadisələri törətməkdir. İran uzun illər ərzində ölkə ərazisində çoxlu minalar basdırıb. Bu prosesə hüquq-mühafizə orqanlarımız çox ciddi hazır olmalıdır. Peşəkar səviyyədə bütün potensial təhlükə mənbələri ən qısa müddətdə müəyyənləşdirilərək zərərsizləşdirilməlidir".

**İsmayıl**



# Sülhməramlı kontingentin fəaliyyəti sual altındadır

## Təxribatlar göstərir ki, Kreml üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsində maraqlı deyil

**Qarabağdakı separatçı-terrorçulara Xankəndi-Xəlfəli-Turşsu gizli yolu ilə silah daşınması və bu faktın ifşası ermənilər arasında panika yaradıb. Martın 5-də Xəlfəli yolunda baş verən erməni təxribatı, şübhəsiz ki, ”situasiya” xarakterli epizod deyil, planlı akt olub. Görünür, düşmən alternativ yolun nə vaxtsa yoxlanılacağını təxmin edib və buna hazırlıq görüb. Rusiya sülhməramlılarının da iştirakçısı olduğu bu hadisə həqiqətən də, vəziyyətin qızışması riskinin yüksək dərəcəsini göstərir. Bu hadisələr Ermənistan-Azərbaycan münaqişəsi ətrafında cərəyan edən siyasi və ya geosiyasi rəqabətin qızışması şəraitində baş verib.**

Təxribat Nikol Paşinyanın Almaniya kansleri Olaf Şoltsla görüşü ərəfəsində, Rusiyanın xarici işlər naziri Lavrovun Bakıya səfərindən bir neçə gün sonra baş verir. Eyni zamanda təxribat Aİ-nin xüsusi nümayəndəsinin Toivo Klaarın Bakıya səfəri günü, həmçinin ABŞ-nin Qafqaz danışıqları üzrə baş müşaviri Luis Bononun Bakıya səfərindən bir gün əvvəl baş verir. Belə çıxır ki, Lavrovun nəzarət-buraxılış məntəqələri ilə bağlı açıqlaması və Şoltsun qondarma ”öz müqəddəratını təyin etmə” məsələsinə istinadı separatçıları həvəsləndirib.

**Milli Həmrəylik Partiyasının sədri, müharibə veteranı Əlisahib Hüseynov ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiyanın Cənubi Qafqazda qalıcı sülhün bərqərar olmasını istəmədiyi artıq hər kəsə gün kimi aydındır.** Partiya rəhbəri qeyd edib ki, Ermənistan və Azərbaycan arasında sülh danışıqları məsələsində nə vaxt ən kiçik bir irəliləyiş müşahidə olunursa, bunun ardınca dərhal ya sərhəddə, ya da separatçıların cəmləşdiyi Azərbacan ərazilərində silahlı insidentlər, təxribatlar baş verir: ”Bütün bunlar isə onu göstərir ki, Rusiya tərəfi vasitəçi və zəmanətçi ölkə kimi tərəflər arasında münasibətlərin normallaşdırılmasını və yekun sülh sazişinin imzalanmasını təmin etməyi bir öhdəlik kimi öz üzərinə götürsə də, həqiqətdə real sülhün bərqərar olunmasını istəmir. Bunun tam əksi olaraq Rusiya daha da aranı qızışdırmağa çalışır. Martın 5-də baş vermiş təxribat göstərir ki, Rusiya üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsində maraqlı deyil. Belə vəziyyətin davam etməsi Rusiya sülhməramlılarının himayəçiliyi altına sığınmış erməni separatçılarına da sərf edir. Nikol Paşinyan da üzdə özünü ”sülh tərəfdarı” kimi təqdim etməsinə baxmayaraq, Ermənistandan Qarabağdakı qeyri-qanuni erməni silahlı dəstələri üçün silah, sursat, təminat və digər hərbi vasitələrin daşınmasının davam etdirilməsinə göz yumur. Lakin Kremlin və İrəvanın məsələyə necə yanaşmasından və onların hansı geosiyasi hədəflərə can atmasından asılı olmayaraq üçtərəfli bəyanatın şərtləri mütləq yerinə yetirilməlidir. Ermənistan tərəfindən Azərbaycan ərazisinə hərbi təyinatlı yüklərin daşınmasına, Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin bizim ərazilərimizə göndərilməsinə və rotasiyasına dərhal son qoyulmalıdır. Eləcə də bütün erməni silahlı qüvələri ölkəmizin ərazisindən tam çıxarılmalıdır”.

*Ə.Hüseynova görə, Ermənistanın bu kimi əməlləri hərbi təcavüzün bir qədər başqa formada hələ də davam etdirilməsi anlamına gəlir:* ”Bu isə o deməkdir ki, Rusiyanın sülhməramlı kontingenti öz üzərinə düşən vəzifəni yerinə yetirmir, Ermənistan isə bundan sui-istifadə edir. Lakin bu hal uzun müddət davam edə bilməz. Bu kimi qəbuledilməz hallara dərhal son qoyulmalıdır. Rusiya sülhməramlı kontingenti separatçılara himayəçilik etmək əvəzinə, üzərinə düşən vəzifələri yerinə yetirməlidir. Burada bir digər önəmli məqam da ondan ibarətdir ki, Rusiya və Ermənistan bu kimi qəbuledilməz hərəkətləri ilə özlərinə qarşı ciddi inamsızlıq yaradır. Üçtərəfli bəyanatın icra olunmamasını sübut edən faktlar da bu inamsızlığı daha da qüvvətləndirir. Ermənistandan alternativ (torpaq) yollarla Qarabağa hərbi ləvazimatların, silah-sursatın daşınması Azərbaycan ərazilərində hələ də qanunsuz silahlı birləşmələrin olduğu faktını bir daha əyani təsdiqləyir. Hətta ortaya çıxan videogörüntülər də göstərir ki, ermənilər Qarabağa qanunsuz hərbi texnika və sursat daşımalarını yenə də davam etdirir. Videokadrlarda qanunsuz erməni silahlı dəstələrin hərbi nəqliyyatının Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə hərəkət etdiyi görünür. Rusiya və Ermənistanın bu davranışları cavabsız qala bilməz. Bu son hadisələrdən sonra bizim hərəkətə keçməyimiz üçün tam əlverişli zəmin yaranıb. Azərbaycan Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqələri qurmalıdır. Baş vermiş son hadisələrin məntiqi də bunu tələb edir. Əks təqdirdə öz ərazilərimizdə antiterror əməliyyatı keçirmək hüququmuzu özümüzdə saxlayırıq”.

**İsmayıl Qocayev**

# Səngər qazırlar, ağılları başlarına gəlməyib

## Separatçılar Azərbaycan əsgərinin üzünü bu dəfə Xankəndidə görəcəklər



**Ermənilərin səngər qazdığını əks etdirən görüntülər yayılıb. Bu barədə Ermənistanın VOMA terror təşkilatının teleqram kanalında görüntülər paylaşılıb. Qeyd olunub ki, erməni könüllülər səngərlər qazırlar ki, ”düşməndən” xəbərsiz və təhlükəsiz şəkildə atəş nöqtələri arasında hərəkət edib vuruşsunlar.**

Bildirilib ki, səngərlər etibarlı şəkildə bağlanacaq və yuxarıdan möhkəmləndiriləcək. Diqqətçəkən məqam səngər qazanların mülki geyimdə, hətta yanlarında qadınların da olmasıdır. Hesab edilir ki, bu, ermənilərin növbəti hiyləsidir. Çünki ordumuz müdaxilə edərsə, ”mülki şəxslərə” müdaxilə edildiyini bildirəcəklər, ”mülki ermənilərin”özünü qorumaq üçün” çalışdıqlarını göstərməyə çalışırlar. Qeyd edək ki, VOMA (Voxj Mnalu Arvest - Sağ qalmaq sənəti) Ermənistan ərazisində fəaliyyət göstərən çoxsaylı terror təşkilatlarından biridir. Bu terror təşkilatının Qarabağdakı filialı xeyli müddətdir fəaliyyətə başlayıb.

**Politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında bildirib ki, ermənilər başlarını itiriblər. Analitik deyib ki, 30 il ərzində torpaqlarımızda qurduqları ”keçilməz istehkamların” qısa zamanda darmadağın edilməsi ermənilərə dərs olmayıb:** ”Azərbaycan Ordusu ”keçilməz” sədləri bir neçə saatın içərisində yarıb keçdi. Buna rəğmən, üç-beş ermənin qazdıqları səngərin onları qoruyacağını düşünürlər. Səngər qazmaqları, yeni istehkam düzəltmələri, silahlanmaları göstərir ki, bunların ağılları başlarına gəlməyib. Deməli, ermənilərin normal münasibətlə yola gələcəkləri də mümkün deyil. Separatçılar Azərbaycanın tərkibində və azərbaycanlılarla bir yerdə yaşamaq istəmirlər. Daha doğrusu, məhv edilməyi daha üstün tuturlar. Azərbaycan əsgəri separatçıların istəyini tezliklə yerinə yetirməli və onları 44 günlük müharibədə ”yoxa çıxan” erməni əsgərlərin yanına göndərməlidir. Məhv edilən separatçılar iki ildə nələrin dəyişdiyini ”Erablur” qəbiristanlığında yatan erməni hərbçilərə danışarlar. Çünki ”mülki şəxslərin” səngər yox, əslində özlərinə qəbir qazdıqlarını 44 günlük savaşda gəbərdilmiş ermənilər daha yaxşı bilirlər. Təbii ki, orada heç bir ”mülki şəxsdən” söhbət getmir. Həm də Azərbaycan PUA-ları erməni separatçılarını bir-bir ”dənləmək” gücündədir. Separatçılar Azərbaycan əsgərinin üzünü ancaq Xankəndidə görəcəklər. Onda da gec olacaq”.

**İsmayıl Qocayev**



# Azərbaycan sülh prosesində heç bir kompromisə getməyəcək

## “Ermənistan bu proseslərdə yararsızlıq kompleksi yaşayır. Bu isə onun problemidir və bizə aidiyyəti yoxdur”

**”Azərbaycan Brüssel sülh gündəliyinə sadiqdir”. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən bildirib.**

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşü məmnunluqla xatırladıb və ölkəmizin Brüssel sülh gündəliyinə sadiq olduğunu vurğulayıb.

**Azərbaycanın sülh prosesində heç bir kompromisə getməyəcəyini deyən politoloq Tofiq Abbasov ”Şərq”ə bildirib ki, hansı format sülhə gedən yolun mahiyyətini göstərəcəksə, rəsmi Bakı ona da sadiq qalacaq:**

”Ermənistan tərəfi təsadüfi məqamlardan imtiyazlı vəziyyət qazanmağa çalışaraq, özünü zərərçəkmiş tərəf kimi göstərməyə çalışır. Amma bu, belə deyil. Əslində rəsmi İrəvanı hazırda qayğılandıran onun məğlub dövlət kimi tanınmasıdır. Bundan isə çıxış yolu tapmaq mümkün deyil. Çünki Ermənistan həqiqətən də məğlub edilib. Yəni Azərbaycan dünya qanunvericiliyinə söykənən həqiqətlərinin qüvvəyə minməsini öz gücü hesabına təmin edib. Ona görə də Ermənistan bu proseslərdə yararsızlıq kompleksi yaşayır. Bu isə onun problemidir və bizə aidiyyəti yoxdur. Rəsmi İrəvan səhvlərini etiraf etməli və sülh yolunda özünü reabilitasiyaya çalışmalıdır.

Ümumiyyətlə, Toivo Klaar kimi ABŞ-nin nümayəndələri başa düşməlidir ki, Azərbaycan oyun qaydalarını pozmur. Əksinə, rəsmi Bakı bu qaydalara riayət edir və Ermənistanı da buna qoşulmağa çağırır.

Odur ki, rəsmi İrəvan bu proseslərdə zəifdirsə, özü bilər, biz yolumuzdan dönməyəcəyik. Bizim üçün bölgədə dayanıqlı sülh lazımdır və bu istiqamətdə çalışacağıq”.

**Nihat Müzəffər**

# Baxmut oxu müharibənin sonrakı taleyinə həlledici təsir göstərəcək

## Həm Rusiya, həm də onun rəqibləri Ukraynadakı müharibədən əlidolu çıxmağı hədəfləyirlər



**”Rusiya müharibədə ”yeni taktika”ya keçir, Ukrayna isə əks-hücuma hazırlaşır”.**

Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Rusiya Ukraynanın iri sənaye şəhəri olan Baxmutu mühasirəyə almaq və ələ keçirmək səylərini davam etdirir:

”Şəhərin Rusiyanın işğalı altına düşməsinə yaxınlaşması cəbhənin fərqli istiqamətləri üzrə də əməliyyat planlarının hazırlanmasını labüd edir. Rusiya genişmiqyaslı hava hücumlarına, Ukrayna isə əsasən Xerson və Zaporojye vilayətlərini işğaldan azad etmək əməliyyatlarına hazırlıq görür.

Rusiya Ukraynanın gec-tez əks-hücuma keçəcəyini anlayır. Tutduğu ərazilərdə müdafiəni gücləndirib, həmin cəbhələrdən gələcək həmlələrin qarşısındakı maneələri yarmağa çalışır. Moskvada başa düşürlər ki, Ukraynaya qarşı canlı qüvvəni ayaqlandırmaq çətindir. Çünki hərbi əməliyyatlar baxımından Ukrayna hərbçiləri daha yaxşı döyüş qabiliyyətinə malikdirlər. Buna görə də Rusiya alternativlər axtarır və daha çox aviazərbələrlə Ukraynanın hərbi qüvvələrini, mülki infrastrukturunu sıradan çıxarıb taktiki üstünlüklər qazanmağı hədəfləyir.

Ukrayna Hərbi Hava Qüvvələri Komandanlığı bildirir ki, Rusiya ”UPAB-1500V” hava bombalarından istifadəyə başlayıb. Bu bombalar texnologiyasına və partlayıcı gücünə görə ciddi təhlükədir. Rusiya Ukrayna müharibəsində aviazərbələrin Kiyevi məğlub edə biləcək potensialına güvənir, hərçənd ki, hələ də istədiklərinə nail ola bilməyib. Ancaq Rusiyanın inam bəsləyə biləcəyi başqa bir əməliyyat taktikası yoxdur, ona görə də daha çox hava zərbələrini maksimallaşdırmağı qarşıya məqsəd qoyur. Bu məqsədlə Rusiya Hərbi Hava Qüvvələrinin fəaliyyətində aktivlik dərəcəsi artırılır”.

*Ekspertə görə, Rusiya Baş Qərargahı Rostovda və Ukraynanın ilhaq edilmiş Krım yarımadasındakı aerodromlarda hava hücumları və aviazərbələrdən qorunmaq üçün gücünü artırıb:* ”ABŞ-nin nüfuzlu ”Atlantic Council” analitik mərkəzinin nəzdindəki Rəqəmsal Tədqiqat Laboratoriyası Rusiyanın aviasiya gücünün hazır vəziyyətə gətirildiyini sübut edən peyk görüntülərini toplayıb. Rusiyanın aviazərbələrə üstünlük verməsi onun Ukrayna cəbhəsində hava məkanına nəzarət və bununla NATO-nu təhdid altında saxlamaq istəkləri ilə bağlıdır. Çünki Qərbin Ukraynaya qırıcılar, güclü aviasiya vasitələri verəcəyi gündəmdədir. Moskva indidən onların tədarükünün qarşısını almaqdan ötrü tədbirlərini görür. Müharibənin birbaşa tərəfi olmayan Avropa İttifaqı Ukraynadakı münaqişədən ən böyük əziyyətləri çəkir. O, bir tərəfdən, Rusiyanın hədə və şantajları, digər tərəfdən isə ABŞ-Britaniya ikilisi tərəfindən verilən təlimatların icrasındakı problemlərin arasında əzilir. Nəzərə almaq lazımdır ki, Avropa İttifaqının üst quruluşları son onilliklər ərzində genişlənsə də, onun təhlükəsizliyini müəyyən edən əsaslar hələ də ABŞ-Britaniya tandemindən asılıdır. Rusiya Ukraynadakı müharibənin nəticələrini elə şəkillərdirmək istəyir ki, həmin rıçaqları əlinə keçirərək Vaşinqton-London tandemini regiondan sıxışdırsın. Lakin Kreml müharibənin nəticələrindən asılı olmayaraq, çətin ki, öz məqsədinə çata bilsin. Çünki ABŞ və Britaniyanın nüfuz dairəsinin tarixi, siyasi, təhlükəsizlik, iqtisadi əsasları çox dərinə işləyib. O, bir müharibə ilə sarsıla bilməz, hərçənd ki, Avropa İttifaqı modeli Ukraynadakı müharibə səbəbindən sarsıntı içərisindədir”.

**A.Kərimov qeyd edib ki, ABŞ-Böyük Britaniya ikilisi Ukraynadakı müharibənin strateji təhlükələrini analiz edir və Avropanın təhlükəsizliyində mərkəzi rola malik olduqlarını nümayiş etdirir:** ”Ukrayna münaqişəsi bu ikilinin sonrakı beynəlxalq rolunu müəyyənləşdirəcək, lakin müharibənin nəticələri kartların oynanılmasını müvəqqəti təxirə sala bilər. Avropadakı arxitekturanın silkələnməsi Asiya uğrundakı rəqabəti daha da şiddətləndirir. Ona görə də həm Rusiya, həm də onun rəqibləri Ukraynadakı müharibədən əlidolu çıxmağı hədəfləyirlər. Rusiya indi üçün maksimalist mövqeyinə çatmağı aviazərbələrin gücləndirilməsi, Qərb isə Ukraynaya külli miqdarda silah tədarük etməkdə görür. Baxmut oxu ona görə böyük strateji dəyərə malikdir ki, bura müharibənin sonrakı taleyinə həlledici təsir göstərəcək. Bəs Ukraynadakı oxlar qlobal oyunçulardan kimin sinəsinə sancılacaq? Bunun mütləq proqnozlarını vermək çətindir, çünki nə danışıqlarda, nə də hərb meydanında böyük bir irəliləyiş mövcuddur. Süstlük isə müharibənin strateji alovlarını böyüdür və Ukraynanın poliqon kimi istifadə edilməsinə münbit zəmin yaradır”.

**İsmayıl**

# Tehran nüvə proqramından imtina etməyib

## ABŞ və İsrail bunun qarşısını almaq üçün koordinasiyanı gücləndirmək barədə razılığa gəliblər



**ABŞ və İsrail İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün koordinasiyanı gücləndirmək barədə razılığa gəliblər. Bu barədə Ağ Evin yaydığı iki ölkənin birgə bəyanatında deyilir.**

”Rəsmilər İranın nüvə proqramının irəliləyişini böyük narahatlıqla nəzərdən keçirdilər və İsrail ilə ABŞ arasında çoxillik təhlükəsizlik tərəfdaşlığının daha da gücləndirilməsinin qarşılıqlı məqsədini bir daha təsdiq etdilər”, - deyə məlumatda bildirilir. ABŞ Silahlı Qüvvələri ilə İsrail Müdafiə Qüvvələri arasında keçirilən son birgə təlimlərin nəticələri də müzakirə olunub. Görüş zamanı hər iki tərəf ”İsrailin təhlükəsizliyini və Yaxın Şərq regionuna siyasi inteqrasiyasını daha da dərinləşdirmək üçün səylərini” nəzərdən keçirib.

**Qərbin sanksiyalar üzərindən İrana təzyiq göstərməyə çalışdığını deyən siyasi şərhçi Elçin Xalidbəyli ”Şərq”ə vurğulayıb ki, həmin sanksiyalar cənub qonşumuza o qədər də ciddi təsir göstərmir və rəsmi Tehran nüvə proqramından imtina etməyib:** ”Son açıqlamalar İranın uranı təxminən 83 faiz zənginləşdirə bildiyi yönündədir. Bu da nüvə silahını yaratmaq üçün çox az bir işin qaldığını göstərir. Yəni ehtimallara görə, 90 faizə qədər uranı zənginləşdirə bilsələr, nüvə silahı yarada bilərlər. Hətta açıqlamalar var ki, rəsmi Tehran təxminən 12 gün ərzində nüvə silahı yarada bilər. Bundan isə Qərb və digər siyasi dairələr ciddi şəkildə narahatdırlar. Çünki İran nüvə silahı əldə edə bilsə, cox ciddi geopolitik dəyişikliklər baş verə bilər. Yəni cənub qonşumuz nüvə silahının təsir gücündən istifadə edərək, Qərbin siyasətinə qarşı daha güclü müqavimət imkanları qazanacaq”.

Analitikin sözlərinə görə, Qərb və İsrail qüvvələrini birləşdirərək, nüvə proqramının iflasa uğraması üçün əllərindən gələni edirlər: ”Hətta bir müddət əvvəl İranın hərbi obyektlərinə hücumlar da olmuşdu. Düzdür, bu hücumun nəticələri hələlik məlum deyil. Ancaq ehtimal olunur ki, ABŞ rəsmi Tehrana nüvə silahı yaratmağa imkan yaratmayacaq. Onların hansı metodu seçəcəyi isə müəmmalıdır. Onlar iqtisadi sanksiyaları gücləndirə bilərlər.

Bunun nə qədər effektiv olacağı isə bəlli deyil. Digər tərəfdən, İrana qarşı hərbi müdaxilə məsələsinin masada olduğu barədə bəyanatlar uzun illərdir ki, səsləndirilir. Lakin indiyə qədər heç bir real hərbi müdaxilə baş verməyib. Bundan sonra olub-olmayacağı isə məlum deyil. Əgər Qərbin çıxış yolu qalmasa, belə bir addım da atıla bilər”.

**Nihat**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması;**



# 8 Marta yaraşan 8 fakt

## Azərbaycanda zərif cinsin nümayəndələrinə incə münasibət var

**Dünyanın sevgi və şərəflə qeyd etdiyi 8 Mart Qadınlar Gününün tarixi alman siyasətçisi, hüquq müdafiəçisi, jurnalist Klara Setkinin (1857-1933) təklifi ilə 1910-cu ildə Kopenhagendə keçirilən iclasda qəbul olunub. Bu təqvim 1857-ci ilin 8 martında qadınların Nyu-Yorkda baş tutan 12 saatlıq iş rejiminə etiraz aksiyasından qaynaqlanıb. Qadın hüquq və azadlıqları uğrunda mübarizələr dolu illərdən sonra bu tarix 1977-ci ildə BMT tərəfindən Beynəlxalq Qadınlar Günü kimi rəsmiləşdirilib. 8Martın qayəsi qadın hüquqlarına diqqət çəkməkdir.**

8 Mart - Qadınlar Günü hər il Azərbaycanda da rəsmi bayram kimi qeyd edilir.

Qeyd edək ki, Amerika və əksər Avropa ölkələrində zərif cinsin nümayəndələri seçki hüququndan məhrumkən 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadına kişilərlə bərabər seçkilərdə iştirak etmək hüququ verilirdi. Cümhuriyyət hakimiyyəti hələ fəaliyyətinin ilk illərindən qadın azadlığı və qadın hüquqlarının təmini ilə bağlı problemlərin həllinə çalışıb. Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra da mülki cəmiyyətin inkişafında və müstəqil dövlətin qurulmasında qadınların rolu artmağa başlayıb. 1992-ci ildə Azərbaycan BMT və ATƏT-in, 2001-ci ildə isə Avropa Şurasının üzvü olduqdan sonra isə bu təşkilatların hər birinin tərkibində olan gender məsələləri, qadınların vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olan strukturların hər biri ilə sıx əməkdaşlıq etməyə başlayıb.

Azərbaycanda dövlət qadın siyasətinin əsasını qoymuş Ümummilli Lider Heydər Əliyev hər zaman ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırmaqla onların fəaliyyətinə geniş meydan yaradıb.

Ümummilli Lider Heydər Əliyev qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin mühüm, prioritet vəzifələrindən biri hesab edirdi.

Məhz Ümummilli Liderin uzaqgörənliyi və qətiyyəti sayəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib.

Dövlət qadın siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Qadınların ictimai nüfuzunun artırılması, cəmiyyətdə rolunun yüksəldilməsi, gender siyasətinin gücləndirilməsi istiqamətində həyata keçirilən davamlı tədbirlərin nəticəsi olaraq bu gün Azərbaycan qadınları dövlət qurumlarında, Parlamentdə, bələdiyyələrdə uğurla təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir və ölkənin inkişafına hər sahədə böyük töhfələr verirlər.

Azərbaycanda qadınlar ölkənin ictimai-siyasi həyatında daim mühüm yer tutub. Azərbaycanda həyata keçirilən uğurlu gender siyasəti nəticəsində bu gün də qadınlarımız ölkəmizin ictimai-siyasi həyatında fəal mövqe tutaraq müstəqil, demokratik dövlət quruculuğunda yaxından iştirak edərək ölkənin sosial-iqtisadi həyatının bütün sahələrində çalışaraq əldə olunan uğurlarımızda mühüm rol oynayırlar.

Platonun da dediyi kimi, "əllərimiz eyni işi görməklə mükəlləfdir. Yalnız birini artıq işlətmək vərdişi onu digərindən bacarıqlı etmişdi".

Hazırda ölkədə təhsil sahəsində çalışanların 73,3 faizini, əhaliyə səhiyyə və sosial xidmət göstərənlərin 77,0 faizini, əyləncə və incəsənət sahəsində çalışanların 62,5 faizini qadınlar təşkil edir. Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki illərə nisbətən 6 dəfə artaraq 5236 nəfərə çatıb. Bu da ümumi bələdiyyə üzvlərinin 35 faizini təşkil edir. Milli Məclisdə təmsil olunan qadınların sayı da artır. Əgər 1990-cı ildə deputatların 4,3 faizi, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, hazırda bu rəqəm 18,2 faizi təşkil edir. Əksər yerli icra hakimiyyəti başçılarının müavinlərindən biri qadındır. 2013-cü ildə bu rəqəm 35 idisə, hazırda bu rəqəm 76 nəferdir. Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 57,6 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,4 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artıb.

Son 20 ildə isə iş dünyasında qadınların rolu və çəkisinin intensiv artdığı göz önündədir. Xanımların sahibkarlıq fəaliyyətini artırmaq, onların hüquqlarının qorunması və layiqli əməyin təmin olunması, müasir dövrün və əmək bazarının tələblərindən irəli gələn istiqamətlər üzrə maarifləndirici layihələrin həyata keçirilməsi Azərbaycanda bu sahədə atılan addımlardan sadəcə bir neçəsidir. Qadınların hüquqlarının qorunması onların iqtisadi müstəqilliyi ilə birbaşa bağlıdır. Bu səbəbdən qadın sahibkarlığının inkişafı böyük əhəmiyyət kəsb edir və olduqca aktual mövzudur. Qadınlar arasında sahibkarlığın inkişafı cəmiyyətin inkişafına bütövlükdə təsir edir.

**Hüquqşünas Gülnar Qasımlının sözlərinə görə, Azərbaycanda qadına münasibət tarixən müəyyən hörmətə və diqqətə əsaslanıb.** Bununla yanaşı Azərbaycan tarixində qadın hüquqlarının və azadlıqlarının qanunvericilikdə təsbit olunması dünyada baş verən proseslərə uyğun həyata keçirilib: "Azərbaycanda qadın hüquqlarının müdafiəsi və təşviqi, dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbulunda qadınların iştirakının genişləndirilməsi dövlət siyasətinin tərkib hissəsidir. Qadınlarla bağlı məsələlərin həlli ilə bağlı bir çox qanunların, fərman və sərəncamların qəbulu, beynəlxalq təşkilatların üzvü kimi ölkəmizdə mühüm sənədlərin tətbiqi qadın hüquqlarının həyata keçirilməsi və təminatının inkişafına təkan verib.

Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayıb. 8 Mart bütün dünyada qadınların hüquqlarının tanınması günüdür. Azərbaycanda isə qadına dünyanın irəli sırada olan ölkələrinin verdiyi hüquqların hamısı verilib. Bu baxımdan zənnimcə, uğurlu Azərbaycan qadını öz vəzifə borcu ilə hüquq və azadlıqlarının tarazlığını saxlayanlardır. Əslində, 8 Mart öz hüquqlarını tanıyan, öz hüquq və azadlıqlarının tapdanmasına imkan verməyən qadınların bayramıdır".

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Böyük ehtimalla Rusiyanın "əli" var

## Hipermarketə basqını mesaj kimi qəbul etmək lazımdır

**"Azərbaycanda hipermarketə hücumla bağlı cəmiyyətdə çoxlu ehtimallar, versiyalar dolaşır". Bunu "Şərq"ə sabiq təhlükəsizlik zabiti, politoloq Ərəstun Oruclu martın 4-də Xətai rayonundakı hipermarketə edilmiş silahlı hücumdan danışarkən deyib.**

Onun sözlərinə görə, istər sosial şəbəkələrdə, istərsə də mediada sualların, versiyaların gündəmə gəlməsinin, müzakirə predmetinə çevrilməsinin başlıca səbəbi hadisə haqqında rəsmi məlumatların yetərincə olmamasıdır: "Həmin axşam Fəvvarələr meydanı yaxınlığında əməliyyat keçirildi. Hadisəni törədənlərdən biri zərərsizləşdirildi, digəri saxlanıldı. Sonra əməliyyatın keçirilməsi, hadisənin başvermə yeri ilə bağlı çoxsaylı suallar, fərziyyələr ortaya çıxdı. Təəssüf ki, ölkəmizdə dövlət orqanları ictimaiyyəti detallı məlumatlandırmağı hələ də bir vərdiş, zərurət, öhdəlik olaraq mənimsəyə bilməyiblər. Belə təcrübəyə malik deyillər. Məhz bu səbəbdən də baş verənlər çoxsaylı suallar doğurur. Hər hansısa xarici güclərin təsiri olduğunu hesab edənlər də az deyil. Sözügedən hadisənin Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərinin ardınca yaşanması və bir obyektin hədəfə alınması Rusiyanın təhdidi kimi qiymətləndirilib. Belə bir versiya irəli sürənlərin də arqumentləri əsassız deyil. Yəni razılaşmamaq olmur".

Politoloqun qənaətincə, məlum hadisədə xarici qüvvələrin "əli" var:

"Birincisi, Lavrovun səfərindən sonra Rusiya Xarici İşlər Nazirliyinin Laçın dəhlizi barədə verdiyi açıqlamada Azərbaycanın mövqeyi ilə faktiki razı olmadığını gördük. İkincisi, hadisə günün günorta çağı yaşanır. Sonuncu dəfə Bakıda avtomatdan istifadə ilə cinayətin nə vaxt törədildiyini xatırlamıram. Adıçəkilən hadisə isə aktiv bir ticarət mərkəzində, xalq arasında tanınan, bilinən bir hipermarketdə baş verib. Üstəlik, hücum hədəfi onu törədənlərin peşəkarlığı ilə uyğunlaşmır. Görüntülərə baxdıqda açıq-aydın görünür ki, basqını həyata keçirənlər peşəkar cinayətkarlardır. Yəni bu, hansısa narkomanın, oğrunun əməli deyil. Prosesi planlaşdırmaq, avtomatla hücum etmək təxminən 15-20 saniyəni əhatə edir. Bu qısa müddət ərzində bir nəfəri qətlə yetirirlər, digərini yaralayıb, pulu götürüb, gedirlər. Sual olunur ki, belə peşəkar quldurlar bankomata niyə hücum etsin? Hər kəs bilir ki, bankomata yerləşdirilən məbləğin həcmi kifayət qədər məhduddur. Yəni o "əziyyətə" dəymir. Hətta mühafizəçinin başına dəqiqliklə güllə atması da onların təcrübəli olduğunu göstərir. Başqa bir sual yaranır ki, belə peşəkar cinayət törədənlər şəhərin ucqar nöqtəsində cinayəti törədirlər, sonra mərkəzdə gizlənirlər. Bütün ərazilər isə kamera müşahidələrindədir. Üstəlik, gizləndikləri yer ciddi nəzarət olunan, turistik, əhalinin sıx toplaşdığı məkandır. Daxili İşlər Nazirliyinin iki addımlığıdır. Qəribədir... Amma dediyimiz kimi, nə keçirilən əməliyyat, nə də saxlanılan adam haqqında məlumatın yetərli olmaması bütün mülahizələrə rəvac verir. Fikrimcə, göstəricilər - adıçəkilən cinayətin başvermə metodu, vaxtı, onun predmeti, törədənlərin peşəkarlığı, hədəfə alınan hipermarket bunun bir mesaj olduğunu deməyə əsas verir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev strateji dövlət obyektlərinin mühafizəsinə dair qurumun fəaliyyətindəki dəyişikliklərlə bağlı fərman imzaladı. Detalları açıqlanmır, amma hər bir halda belə qənaətə gəlmək olar ki, mesaj çatdı. Anlaşıldı ki, daha ciddi hücumlar, basqınlar, pozucu əməllərə rast gələ bilərik. Bəli, belə əməllər məhz destabilizasiyaya yönələ bilər. Eyni zamanda cəmiyyətdə gərginlik, xof, vahimə yaratmaq istəyindən irəli gəlir, terror aktının əlamətləridir. Analoji basqın edə bilən cinayətkarlar heç vaxt bankomatdakı 15-20-50, hətta 100 min manatı hədəfləməzlər".

Ə.Oruclunun fikirlərinə görə, məlum hipermarket və onun daxilindəki "Unibank"ın bankomatına, əməkdaşlarına hücum da təsadüf hesab edilməməlidir: "Mesaj kimi qəbul etmək lazımdır. Bütün suallara aydınlıq gətirmək zəruridir. Həmin axşam keçirilən əməliyyatın detalları açıqlanmalıdır. Burada sirr yoxdur. Gündüz vaxtı basqın edilib, təhdid yaradan addım atılıb. Ona görə də dövlət orqanları ciddi şəkildə detallı açıqlama yaymalıdır və cəmiyyəti məlumatlandırmalıdırlar. Əks halda, İran və ya Rusiya izi axtaran versiyalar özünə yol tapacaq və cəmiyyətdə panika yaratmağa xidmət edəcək. Böyük ehtimalla isə Rusiyanın "əli" var. Onu da istisna etmirəm ki, bu hadisənin ardınca, martın 5-də Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribat nəticəsində iki hərbi qulluqçumuzun şəhid olmaları çoxlu suallar doğurur. Biri-birinin ardınca qəribə proseslər baş verir. Sanki kimsə Azərbaycana mesaj verir ki, ölkənin daxilində də gərginlik yarada bilərlər".

*Qeyd edək ki, martın 4-də Xətai rayonunda yerləşən "Bravo" hipermarketinə silahlı hücum olub. Hadisə nəticəsində bir nəfər vəfat edib, iki nəfər yaralanıb. Sosial şəbəkələrdə mövcud olan iddialara görə, baş verən hadisədə İran və ya Rusiyanın "əli" var.*

Sücayət Mehti

# Pensiya yaşı mütləq azaldılmalıdır

## Qadınlar sosial baxımdan dəstəyə daha çox ehtiyacı olan vətəndaşlarımızdır



**İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) qadınların pensiya yaşının azaldılmasını təklif edib. Bu məsələ Milli Məclisin İnsan hüquqları komitəsinin ötən gün keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsi"ndə öz əksini tapıb.**

Qadınların pensiya yaş həddinin azaldılması təklifini dəstəkləyən millət vəkili Razi Nurullayevin fikrincə qadınların pensiyaya çıxmaq üçün son yaş həddi 60, kişilər üçünsə 62 olmalıdır: "Bəli, dünyada yaş həddi əsasən 65-dir. Axı o ölkələrdə tibbi əlçatanlıq, sosial yaşayış, əməkhaqları və rahatlıq bizimlə müqayisədə daha yüksək səviyyədədir. Biz özümüzü onlarla necə müqayisə edə bilərik? Biz deputatlar xalqın içindəyik, onların evlərində oluruq, şikayətlərini dinləyirik və yaşayışlarını da çılpaq gözlə görürük. Kəndlərdə, qəsəbələrdə, rayonlarda, Bakının saysız-hesabsız gecəqondularında milyonlarla əhalimiz çətin vəziyyətdə yaşayır. Onun üçün də pensiya yaşını azaltmaq çox vacibdir. Ayda onlarla yas məclislərində oluram. Yaşlanıb ölənlərin sayı çox azdır. Bütün xəstəliklər də çox cavanlaşıb. 30 yaşlı cavan ürək tutmasından ölür, 20 yaşlı gəncin qan təzyiqi var, körpə uşaq onkologiya xəstəliyinə tutulur. Baxıram ki, rəhmətə gedənlərin çoxu 57-62 yaş arasıdır. Hətta qəbiristanlıqlarda da bir monitorinq aparmışam və son zaman ölənlərin əksəriyyəti yaşlanmadan dünyasını dəyişənlərdir. Biz gərək bu faktları nəzərə alaq".

Deputat həmçinin təklif edib ki, sahibkarların hüquqlarını müdafiə edən biznes ombudsmanı məsuliyyətini də Ombudsman öz üzərinə götürsün. Onun sözlərinə görə, Ombudsman Aparatında sahibkarlarla bağlı xüsusi bir şöbə yaradılmalı, yaxud da ən yaxşısı məsul bir şəxs müəyyən edilməlidir: "Bunu təxirəsalınmaz addım hesab edirəm. Sahibkarlıq fəaliyyətinin asanlaşdırılmasına və ölkəyə sərmayələrin cəlb olunmasına ehtiyac var. Dövlət qurumlarının fəaliyyəti, təəssüflər olsun ki, iş yerlərinin açılmasına şərait yaratmır. Qaydalar sərtləşdikcə, iş adamları ölkəni tərk edir və vəsaitləri buradan çıxarır. Sahibkarlıq fəaliyyəti və problemləri üzrə Parlamentdə ictimai dinləmənin keçirilməsini təklif edirəm". Qadınların sosial baxımdan dəstəyə daha çox ehtiyacı olduğunu vurğulayan ekspertlər də pensiya yaşında onların sosial təminatının gücləndirilməsini prioritet hesab edir. **Millət vəkili Vüqar Bayramov isə "Şərq"ə açıqlamasında deyib ki, ötən il Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin iclasında xanımlar üçün pensiya yaşının 65 deyil, 63 müəyyənləşdirilməsinin maliyyə əsaslandırılmasının hazırlanması təklifi irəli sürülüb:** " Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu islahatın reallaşacağı halda maliyyə yükünün hesablanmasının həyata keçirilməsini və ona uyğun müzakirələrin davam etdirilməsini təklif etmişdik.

Nəzərə almaq lazımdır ki, qadınlar sosial baxımdan dəstəyə daha çox ehtiyacı olan vətəndaşlarımızdır. Xüsusilə pensiya yaşında onların sosial təminatının gücləndirilməsi daha prioritetdir. Qadınlar və kişilər arasında pensiya yaşında fərqlər bir sıra ölkələrdə də var. Məsələn, Avstriyada kişilər üçün pensiya yaşı 65 olsa da, qadınlar üçün 60-dır. Uyğun olaraq Macarıstanda 64.5 və 62, İsveçrədə 65 və 64, Xorvatiyada 65 və 62.5 və s. Odur ki, Azərbaycanda da oxşar qaydanın tətbiqi məqsədəuyğun olardı. Bu baxımdan, maliyyə yükünə uyğun olaraq bu istiqamətdə islahatlar davam etdirilməlidir. Bu təklifin maliyyə əsaslandırılması hazırlandıqdan sonra konkret müzakirələrin davam etdirilməsi mümkündür".

Qeyd edək ki, hazırda qadınlara güzəştli şərtlərlə pensiyaya çıxmaq imkanı verilir. 5 və daha çox uşaq doğub onları 8 yaşınadək tərbiyə etmiş qadınların yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Sağlamlıq imkanları məhdud uşağını 8 yaşınadək tərbiyə etmiş anaların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ təmin edilir.

Şəymən

# Erkən doğuş, sadəcə uşaq yox, ana üçün də təhlükəlidir

## Vaxtından əvvəl doğulmuş körpələrdə sağlamlıq problemləri yaranır



**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, neonatoloq-reanimatoloq Bəxtiyar Zeynalov nazirliyin sosial media hesablarına vaxtından əvvəl doğuşlarla bağlı gələn sualları cavablandırıb.**

B.Zeynalovun sözlərinə görə, hər il təxminən 15 milyon körpə vaxtından əvvəl (37-ci tamamlanan hamiləlik həftəsindən əvvəl) doğulur. Vaxtından əvvəl doğulmuş körpələrdə, xüsusən də çox erkən doğulanlarda bəzən sağlamlıq problemləri yarana bilər: ”Bu, körpənin vaxtından nə qədər əvvəl dünyaya gəldiyindən asılıdır: vaxtından son dərəcə erkən doğulan (hamiləliyin 28-ci həftəsinə qədər); vaxtından çox erkən doğulan (hamiləliyin 28-32-ci həftələrində); doğuş müddətinə yaxın doğulan (hamiləliyin 32-37-ci həftələrində).

Tipik olaraq vaxtından əvvəl doğuşun ağırlaşmaları fərqlidir. Əksər hallarda vaxtından əvvəl doğuşun spesifik səbəbi aydın deyil. Bununla belə, məlum risk faktorları var, o cümlədən: diabet və ya infeksiyalar kimi xroniki sağlamlıq problemləri; narkotik və ya alkoqoldan istifadə; çoxdöllü hamiləlik; preeklampsi (hamiləlik zamanı yüksək təzyiq), stressli həyat tərzi və s”.

Vaxtından əvvəl doğuşun fəsadlarına toxunan mütəxəssis-ekspert deyib ki, bütün vaxtından əvvəl doğulmuş körpələr fəsadlarla qarşılaşmasa da, erkən doğuş qısamüddətli və uzunmüddətli sağlamlıq problemlərinin yaranmasına səbəb ola bilər: ”Körpə nə qədər tez doğulsa, ağırlaşma riski bir o qədər yüksəkdir. Vaxtından əvvəl doğulmuş uşağın çəkisi də mühüm rol oynayır. Bəzi problemlər doğuş zamanı görünə, bəziləri isə sonradan inkişaf edə bilər. İlk həftələrdə vaxtından əvvəl doğuşun ağırlaşmalarına tənəffüs problemləri səbəb olur. Vaxtından əvvəl doğulmuş körpənin tənəffüs sisteminin yetişməməsi səbəbindən nəfəs almaqda çətinlik yarana bilər. Vaxtından əvvəl doğulmuş körpələrdə bronxopulmoner displaziya kimi tanınan ağciyər xəstəliyi də inkişaf edə bilər. Bundan əlavə, bəzi vaxtından əvvəl doğulmuş körpələr apne sindromu kimi tanınan nəfəslərində uzunmüddətli fasilələrlə qarşılaşa bilərlər. Vaxtından əvvəl doğulmuş körpələrdə ən çox rast gəlinən ürək problemləri ”Patent Duktus Arteriosus” (PDA) və aşağı qan təzyiqidir (hipotensiyon).

**Mama-ginekoloq Leyla İbrahimli isə ”Şərq”ə açıqlamasında deyib ki, körpə vaxtından əvvəl doğulubsa, bu o deməkdir ki, bəzi daxili orqanları hələ tam formalaşmayıb və onun orqanizmində bir çox xəstəliklərin inkişafı üçün münbit şərait var:** ”Vaxtından əvvəl doğulan orqanizm istiliyi saxlaya bilmir, ağciyər toxuması tam yetişməmiş olur və sərbəst nəfəs ala bilmir. Belə körpələr oksigen dəstəyinə, isinməyə ehtiyac duyur və bunun üçün küvəzə yerləşdirilirlər. Onlarda fizioloji reflekslər də inkişaf etmədiyindən uda bilmir, zondla qidalandırılırlar. Belə körpələrdə bağırsaq da tam formalaşmadığından funksiyasını yerinə yetirə bilmir. Demək olar ki, hər vaxtından əvvəl doğulan körpədə anemiya müşahidə olunur”.

**Ginekoloqun sözlərinə görə, erkən doğuş, sadəcə uşaq yox, ana üçün də təhlükəlidir:** ”Onu da deyim ki, ananın keçirdiyi genetik və infeksion xəstəliklər, onun psixoloji vəziyyəti, zərərli vərdişləri və yaşı ilə əlaqədar müəyyən faktorlar doğuşun vaxtından əvvəl baş verməsinə səbəb olur. Erkən doğuş hamiləliyin 22-37-ci həftələri arasında baş tutarsa və dölün çəkisinin 500-2500 qr, boyunun 25 sm olduğu halda hesab olunur. Çoxdöllü hamiləlik zamanı 22-35 həftələrdə doğuş erkən sayılır. Risk amilləri isə uşaqlıq boynu və uşaqlıq yolunun infeksiyası,

ödemlər, artmış arterial təzyiq və proteinuriya (sidikdə zülal) ilə gedən ağır hestozlar, dölün çanaq gəlişi, dölün inkişaf anomaliyaları və sairdir”.

**Şəymən**



# “Xanım müəllimlərin çox olması faciə deyil"

Nizami Cəfərov: ”Bunun üstünlükləri də var”

**”Qadınlar elm sahəsində üstünlük təşkil edir. Kişilər yeni dövrün tələblərinə görə daha çox gəlir qazanılan işlərə müraciət edirlər. İqtisadiyyata, biznesə üz tuturlar”.**

*Bunu ”Şərq”ə açıqlamasında millət vəkili, akademik Nizami Cəfərov deyib.*

O, orta məktəblərdə kişi müəllimlərin say azlığının şagirdlərin xarakterinin formalaşmasına təsir göstərdiyini də vurğulayıb:

”Xanım müəllimlər zərifdir. Kişi müəllimin dərs dediyi şagirdin xarakteri isə fərqlənir. Lakin xanım müəllimlərin çox olması faciə deyil, bunun üstünlükləri də var. Şagirdlər mədəni, səliqəli olur, nəzakətli davranırlar.

Təkcə Azərbaycanda yox, bəzi dünya ölkələrində də eyni hal yaşanır”.

*Qeyd edək ki, Azərbaycanda elmi işçilərin 59,2 faizi qadınlardır. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,2 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,1 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır.*

**Aygün**

# "Məktəbin vəzifəsi təkcə elm verməkdən ibarət deyil"

## “Yaşın neçə olmasına baxmayaraq, şəxsiyyəti, əqidəni alçaldan davranış qəbuledilməzdir”

**Məktəb daxilində baş verən hadisələr sosial şəbəkədə ən çox müzakirə edilən mövzulardandır. Şagirdə şillə vuran direktor, dərsi pozan məktəblilər, şagirdin tədris prosesinə uyğun olmayan davranışlarını cəzalandıran müəllim...**

Cəza demişkən, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, 4 saylı orta məktəbdə müəllim dərsə gecikən şagirdə döşəmə sildirilib. Hələ bu azmış kimi hadisəni videoya çəkib.

Şagirdin bacısı daha sensasiyalı iddia ilə çıxış edib:

”Müəllim bildirib ki, qardaşım növbəti dəfə dərsə geciksə, ona məktəbin sanitar qovşağını sildirəcək”.

Yayılan görüntülərdə müəllim baş verən hadisənin doğruluğunu özü təsdiqləyib. O qeyd edib ki, bu, məktəbin daxili qayda-qanunlarından biridir.

Azərbaycan təhsil sistemində böhranlı vəziyyət ortaya çıxıb. Hər gün məktəbdaxili münasibətlərin düzgün tənzimlənməməsinin şahidi oluruq. Əlbəttə, şagirdlər tədris prosesində nizam-intizama riayət etməlidir. Bəzi istifadəçilərin fikrinə əsasən, şəxsiyyəti formalaşmaqda olan şagirdə ucuz münasibət bəslənilməməlidir.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan psixoloq Əfsanə Rüstəmova bildirib ki, cəmiyyət gələcəyi necə görmək istəyirsə, o cür də insan yetişdirir:**

”Məktəbin vəzifəsi təkcə elm verməkdən ibarət deyil. Eyni zamanda sosial münasibətlərin və ictimai əlaqələrin qurulmasında vərdişin yaranması birbaşa məktəbdən keçir. Məktəb şagirdlərin şəxsiyyətinin formalaşmasında çevrədən və ailədən daha böyük rola malikdir. Çünki məktəbdə məsuliyyət hissi var.

Müəllim belə davranışı ilə onun hərəkətinin sorğulana biləcəyini ortaya çıxarır. Bunun fonunda da istədiyi, lazımi hörməti görmür.

Qrup içərisində şəxsiyyətin alçaldılması yolverilməzdir. Görünür, müəllim şagirdlərə doğru və yanlış anlayışını başa salmaq üçün cəza, yaxud mükafat sistemindən istifadə etməyi planlaşdırıb. Lakin seçilən metod düzgün deyil. Müəllim ”hər pedaqoq bir psixoloqdur” yanaşmasını duyub, hiss etməli idi”.

**Psixoloqun fikrincə, daxili qaydaları məktəb tənzimləyirsə, rəhbərlik normal psixologiyaya malik olmalıdır:** ”Məsələ sadəcə müəllimin davranışında deyil, onun məktəbdə nüfuzu yoxdur. Yaşın neçə olmasına baxmayaraq, şəxsiyyəti, əqidəni alçaldan davranış qəbuledilməzdir. Belə alçaltmalar məktəbə və müəllimə qarşı ikrah hissi yaradır. Bəlkə də bunu bir valideyn etsə idi, narazılıq doğurmazdı. Müəllim valideyn kimi davranmamalıdır.

Uşaq yaşadığı alçalma hissini 25-30 yaşlarında xatırlayacaq. Hadisənin həmin uşaqda yol verəcəyi şəxsiyyət pozuntusunun məsuliyyəti və cavabdehliyini vətəndaş və ölkə olaraq biz daşıyırıq.

Xoşagəlməz hadisələr yaşayan uşaqların məktəbdənkənar psixoloqa müraciəti, peşəkarla məsləhətləşməsi zəruridir.

Məktəbləri də mütəmadi, intensiv şəkildə yoxlamaq lazımdır. Məktəb rəhbərliyi daxili qaydaları öz düşüncəsinə görə nizamlayanda nə vətənə, nə də cəmiyyətə faydalı şəxslər yetişdirə biləcəklər.

Uşaqların gələcəkdə natamam şəxs olmamasından ötrü psixoloqların və pedaqoqların üzərinə böyük yük düşür. Heç bir uşaq elə davranışa məruz qalmamalıdır”.



*Psixoloq: "Məktəb rəhbərliyi daxili qaydaları öz düşüncəsinə görə nizamlayanda nə vətənə, nə də cəmiyyətə faydalı şəxslər yetişdirə biləcəklər"*

**Aygün Tahir**

# Putin savaşından qaçanlar

## Rusiyalı qadınlar doğuş üçün Argentinaya üz tuturlar

**Rusiya Prezidenti Vladimir Putinin Ukraynaya hücumundan sonra minlərlə hamilə rus qadını yeni həyat qurmaq ümidi ilə Argentinaya köçüb və orada uşaq dünyaya gətirib.**

Argentina hökumətinin immiqrasiya rəqəmlərinə görə, 2022-ci ilin yanvar ayından bəri, əsasən orta və yuxarı təbəqədən olan 22 mindən çox rus evlərindən minlərlə kilometr uzaqda yeni bir səyahətə çıxıb. Argentina rəsmiləri burada qadınların sayının artdığını və körpə dünyaya gətirdiyini, bunun da yeni doğulanlara dərhal vətəndaşlıq, valideynlərinə isə müvəqqəti yaşamaq və işləmək icazəsi verdiyini söyləyib.

”Wall Street Journal”ın məlumatına görə, həmin şəxslərdən biri 31 yaşlı Polina Ştaynerdir. Moskvadan gələn Ştayner və əri köç qərarı verməzdən əvvəl Meksika və Braziliyanı düşünüblər, lakin İki yaşlı oğlu ilə Argentinaya gələn cütlük hazırda uşaq gözləyir. ”Qızım burada doğulacaq və argentinalı olacaq” deyən Ştayner onların qərarının qəti olduğunu bildirib: ”Bu, bütün ailənin Rusiya hökumətindən qorunmaq üçün bir şans biletidir”.

Rusların Argentinaya daxil olması üçün vizaya ehtiyac yoxdur. Argentina immiqrasiya məlumatları göstərir ki, fevralın ortalarına olan məlumata görə, 2022-ci ilin əvvəlindən ölkəyə təxminən 11 000 rusiyalı qadın və təxminən 11 400 kişi gəlib. Neçə rus qadınının hamilə olduğu barədə dəqiq məlumat yoxdur, lakin Argentina immiqrasiya və xəstəxana rəsmiləri hamiləliyin son 3 ayında çoxlu sayda qadının gəldiyini söyləyirlər.

İmmiqrasiya rəsmiləri deyirlər ki, müvəqqəti yaşayış icazəsi ilə valideynlər vətəndaşlığa qəbul prosesinə başlaya bilərlər. İmmiqrasiya hüquqşünasları və rəsmiləri də deyirlər ki, Argentina pasportu iki il ərzində əldə edilə bilər və bu pasport sahibinə rusların edə bilmədiyi Avropaya vizasız səyahət imkanı da verir.

Dekabrda sevgilisi ilə gələn və may ayında körpəsini gözləyən 40 yaşlı Asya Davudova ”Bütün ailənin pasport alması üçün cəmi iki il gözləyirsiniz. Biz Argentinanı seçdik. Çünki körpəmə pasport almaq üçün ən asan ölkədir. Biz bura gələndə Rusiyaya qayıtmaq və ya başqa ölkəyə getmək planlarımızdan əl çəkdik”, - deyə o, bildirib.



Müharibə başlayandan bəri yüz minlərlə rus qonşu ölkələrə və uzaq qitələrə qaçıb. Argentina hökumətinin immiqrasiya üzrə direktoru Florensiya Karignano jurnalistlərə bildirib ki, yeni gələnlərin əksəriyyəti hamiləliyin irəli mərhələlərində olan qadınlardır. Bunu gələn təyyarələrdə də görmək olur. Getdikcə daha çox hamilə ruslar gəlir.

YanvardaArgentinaya 4500-dən çoxrusiyalıgəlib. Ötənilineyniayındaburəqəm 1000-dən birqədərçoxidi.

Çoxları ”Ethiopian Airlines”inMoskvadanqalxan, Əddis-Əbəbəvə San-Pauludadayanaraq, sonra Buenos-Ayresəenəngündəlikuçuşlarındanistifadəedir. Təxminən 2500 dollarlıqbiletlərnisbətənucuzmarşrut-hesabolunur. Onlaradətəngediş-dönüşbiletlərialırlar, lakingeridönüşdənistifadəetmirlər.

Argentina hökumətininimmiqrasiyaüzrədirektoruyerliradiostansiyayaverdiyiaçıqlamadafevralın 9-da hamiləliyinirəlimərhələsindəolan 33 gəncrusiyalınınbureyslogəldiyinibildirib. Onunsözlərinəgörə, ikigünsonraeynimarşrutladaha 83 sərnişin, o cümlədən 16 hamilərusiyalıqadıngəlib.

Argentina SəhiyyəNazirliyi, ənişləkdövlətxəstəxanasıolan Fernandez xəstəxanasındakeçənil 985 doğuşun 8,6faizininrusqadınlarına aid olduğunuaçıqlayıb. Bu ilfevralın 14-dək başverən 168 doğuşun 22,6faizinidərusiyalıqadınlartəşkiledib.

**Turan**

**Elanlar**

Ədliyyə Nazirliyi, Tibb xidməti, həkim-konsultant Rəşad Saleh oğlu Zeynalova məxsus TX 0703 saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən İbrahimov Sadiq Tofiq oğluna verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bildiriş**

”Magistral Ekspress” Ziya Bünyadov prospekti 2113-cü məhəllə. Məlumat üçün bildiririk ki, 01.05.2023-cü il tarixində saat 09:00-da Ziya Bünyadov prospekti 2113 ünvanında səhmdarların növbəti ümumi yığıncağı keçiriləcək. Səhmdarların ümumi yığıncağında iştirak etmək üçün səhmdarları təmsil edən şəxslər isə reyestrdən çıxarışın əslini və etibarnamənin əslini mütləq təqdim etməlidirlər. İclasın gündəliyi 1) ”Magistral Ekspress”ATSC-nin 2022-ci ilin maliyyə hesabatlarının müzakirəsi; 2) ”Magistral Ekspress” ATSC-nin Direktorları şurasının (Müşahidə şurası) üzvlərin seçilməsi; 3) ”Magistral Ekspress” ATSC-nin idarə Heyyətinin sədri və üzvlərinin seçilməsi; 4) Digər məsələlər.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
“Muğanbank” ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 659



## Zəlzələdən sonra Yeşilgözün rəngi dəyişib

**Kahramanmaraşda baş verən 7,7 və 7,6 bal gücündə zəlzələlərdən sonra xarici turistlərin marağına səbəb olan Yeşilgöz çuxurunda suyun rəngi çirklənib.**

Tekir məhəlləsindəki Yeşilgöz çuxurunda su əvvəlcə tamamilə quruyub.

Günlər sonra suyun səviyyəsi əvvəlki vəziyyətinə qayıtdıqca suyun rəngi də dəyişib.

Əvvəllər firuzəyə bənzər görünüşü ilə diqqət çəkən Yeşilgözün suyu zəlzələdən sonra qəhvəyi rəngdə olub. Palçıqlı suya bənzəyən Yeşilgözün son vəziyyəti kameralara əks olunub.

*Hər fəsildə soyuq suyu, bənzərsiz mənzərəsi və göz oxşayan gözəlliyi ilə Kahramanmaraşın nəzər muncuğu adlandırılan Yeşilgöz bölgəyə gələn yerli və xarici turistlərin diqqət mərkəzində olub.*

**Turan**

## Ən ideal 7-ci mərtəbədir

Yuxarı və aşağı mərtəbələrdə yaşamağın sağlamlığa təhlükəsi var



**Hündür və aşağı mərtəbələrdə yaşamaq müxtəlif xəstəliklərə qarşı həssaslığa təsir göstərir.**

"Medicina" xəbər verir ki, həkim - terapevt Yuliya Kovalenko yüksək və aşağı mərtəbələrdə yaşamağın səhhətə təhlükələri barədə danışıb.

"Aşağı mərtəbələrdə yaşayan insanlar ən çox ağciyər xəstəliklərindən və ya immunitet səviyyəsinin aşağı düşməsindən şikayət edirlər. Səbəb isə aşağı mərtəbələr zirzəmiyə yaxın olduğundan göbələk və kifın yayılmasıdır.

Bundan əlavə küçədəki tozlar və avtomobillərin işlənmiş qazları evə daha tez dolaraq, orqanizmə nüfuz edir.

Həkimlərin fikrincə, üçüncü və yeddinci mərtəbəyə qədər olan mərtəbələr yaşayış yerinin optimal hündürlüyü hesab edilir. Daha hündür mərtəbədə isə sənaye dumanının mənzilə nüfuz etməsi riski var. İyirmi beşinci mərtəbədən yuxarı ümumiyyətlə zərərlidir. Adətən belə hündürlüklü mənzillərdə ventilyasiya sistemi olmur.

Çox hündür mərtəbələrdə yaşayanlar vibrasiyalardan, aşağı tezlikli infrasəs vibrasiyalarından və atmosfer təzyiqindəki dəyişikliklərdən şikayətlənitlər. Belə insanlar panik atak, yuxu pozğunluğu, narahatlıq, baş ağrı xəstəliklərinə meyillilik və qulaq, burun-boğaz xəstəliklərindən əziyyət çəkə bilərlər.



# 10 il izləndi

## Leylək artıq İstanbuldadır

**Almaniyada doğulan və 2013-cü ildən alimlər tərəfindən miqrasiya marşrutu olan GPS vasitəsilə izlənilən Jonas adlı leyləyin İsraildən İstanbula gəldiyi görüntülənib.**

Baharın gəlişi ilə İsraildən yola çıxan leylək fevralın 23-də Hataydan Türkiyəyə daxil olub.

Adana, Mersin, Konya, Əskişəhər və Kocaeli marşrutunu izləyən və 5 günlük səfərdən sonra İstanbula çatan Jonas zibillikdə görüntülənib.

Quş müşahidəçiləri qarşılaşdıqları leyləyin fotosunu çəkiblər.

Vəhşi təbiət fotoqrafı və quş müşahidəçisi Alper Tüydeş leyləklərin adətən Afrikada qışladığını, Jonas isə ağıllı və praktik bir quş olduğu üçün qışı İsraildə keçirdiyini bildirib.

Tüydeş, leyləklərin ötən illərdən fərqli olaraq gündüzlər səyahət etdiyini, axşamlar isə uyğun və təhlükəsiz yerlərdə qaldığını bildirib.

İstanbula gələrkən leyləklərin tullantı müəssisəsində qidalandığına diqqət çəkən Tüydeş, "İstanbula gəldiyini görən kimi digər quş müşahidəçiləri ilə sosial şəbəkədə təşkilatlandıq və obyektə gəldik. Leyləklə rastlaşdıq və fotosunu çəkdik".

Jonasın İstanbulda qidalandıqdan sonra yoluna davam etdiyini, daha sonra əlverişsiz hava şəraiti səbəbindən bir neçə gün də şəhərdə qaldığını bildirən Tüydeş belə davam edir: "Bu dəfə hava faktoru oldu. Dumanlı hava var. Yağış yağacağı ehtimalı var ki, bu da köçəri quşların fasiləsi üçün səbəbdir. Yəqin ki, bir neçə gündən sonra köç səyahətinə davam edəcək. Çünki burada günlərlə qidalanır, dincəlir və çoxlu enerji toplayır. Buradan yoluna davam edəcək. Almaniyadakı evinə mümkün qədər tez çatmağa çalışacaq".



Leyləklərin hərəkətlərinin sosial mediada təbiətsevərlər tərəfindən böyük maraqla izləndiyinə diqqət çəkən Tüydeş, "Görəsən, hansı şəhərdən keçəcək?", "Bu gecə harada qaldı?", "Yaxalandımı?" və "Neçə gün davam edəcək?" deyə paylaşımlar edildiyini bildirib.

Sosial mediada yazılan paylaşımlar nəticəsində Jonasa marağın artdığını vurğulayan Tüydeş, "Bu cür təbiət hekayələrini və ya təbiətlə bağlı inkişafları daha çox elan etmək üçün sosial medianı bir üstünlük olaraq görürəm".

**Turan**





## Azərbaycanda şok...

265 kq çəkili qadın əməliyyat olundu

**265 kiloqram çəki 4 normal çəkili orta statistik azərbaycanlının çəkisinə bərabərdir. Bir insan özündə 4 insanın çəkisini, piyini, ağırlığını daşıya bilərmi? Belə bir çəki ilə yaşaya bilirmi?**

Günümüzün aktual xəstəliklərindən hesab edilən piylənmə ilə bağlı bir çox həkimlərimiz həyəcan təbili çalmaqdadır. Dünya "piylənmə pandemiyası" ilə üz-üzədir.

Piylənmə ilə mübarizədə beynəlxalq protokollar bir sıra müalicə üsulları təklif edir ki, cərrahi metodla ən uğurlu müalicə üsulu bariatrik əməliyyat - mədəkiçiltmə hesab edilir.

Son 10 ildə Azərbaycanda bu əməliyyatı icra edən mütəxəssislərimiz artmaqdadır. Beynəlxalq səhiyyə sektorunda bariatrik sahə üzrə ölkəmizi təmsil edən bariatrik metabolik cərrah t.e.d. Dr. Taryel Ömərov günümüzə qədər icra etdiyi yüzlərlə bariatrik əməliyyat sayəsində piylənmə ilə mübarizədə səhiyyəmizə önəmli töhfə vermişdir.

Azərbaycanda rekord çəkidə, 265kq-lıq pasiyentin bariatrik əməliyyatının icraçısı olan Dr. Taryel Ömərov xəstə barədə açıqlama verib.

"Bu vaxta qədər əməliyyat etdiyimiz onlarla ağırçəkili pasiyentimizin uğurlu nəticələrindən həm pasiyentlər, həm də biz əlavə stimul almış olurduq. Amma bu dəfəki pasiyentimiz extra ağır çəkili olması ilə seçildi və icra etdiyimiz maraqlı, nadir əməliyyatlar silsiləsindən yeni bir səhifə bəxş etdi.

265 kq-lıq insanın həyatını, əzabını düşünə bilirsinizmi? Bu xanım öz şəxsi həyatında necə əziyyət çəkir, həyat keyfiyyətinin aşağı düşməsi ona həyatdan zövq almağa necə manеələr törədir?

Bir də düşünün, bütün risk faktorlarını göz önünə alaraq, bu və bu kimi pasiyentləri əməliyyat edirik və 9-12 ay müddətində öz ideal çəkilərinə çatırlar. Bütün problemləri, xəstəlikləri geridə buraxaraq sanki dünyaya yenidən gəlmiş kimi yaşayıb həyatdan zövq almağa başlayırlar.

Bunu görmək, insanlara yaşatmaq və onların dualarını almaq əvəzedilməz hisslərdir. Modern Hospital nəzdində təsis etdiyimiz Sağlam Arıqlama Mərkəzində günümüzə qədər 600-dən çox pasiyentdə bu əməliyyatı icra edərək onların "mən yaşamağa başladım" kəliməsini deməsinə səbəb olmuşuq. Onlarla bir ailə kimi olmuşuq, tədbirlərdə, sosial fəaliyyətlərdə də bir yerdə iştirak edirik".

Qeyd edək ki, Beynəlxalq Bariatrik Cərrahlar Assosiyasiyasının tək rəsmi üzvü olan Dr. Taryel Ömərov, 2019-cu ildə 7 ölkədən 1000 nəfərdən çox tibb sahəsinin nümayəndələrinin(həkimlərin, elmi nümayəndələrin, professorların və s.) iştirakı ilə 5-ci Beynəlxalq Bariatrik Cərrahlar Konqresinin Baku Konqres Mərkəzində keçirilməsini təmin edib.

Bu isə ölkə səhiyyəsində keçirilmiş mühüm hadisələrdəndir.

Hazırda isə Dr. Taryel Ömərovun rəhbərliyi ilə may ayında növbəti beynəlxalq konfransın Bakıda keçirilməsi planlanır.

## Elon Mask haqqında yeni iddialar

O, tualetə qoruması ilə gedir, ofis bitkilərini satmağa çalışır



**Tviterin keçmiş və indiki əməkdaşlarının dərc etdiyi yeni hesabatda "SpaceX" və "Twitter"in sahibi Elon Mask haqqında maraqlı iddialar irəli sürülüb. Məlumata görə, Maskın tviter işçilərinə etibar etmədiyi üçün hətta cangüdənlərlə tualetə getdiyi iddia edilir.**

"SpaceX" və "Twitter"in sahibi Elon Maskla bağlı yeni hesabatda şirkətin həm keçmiş, həm də indiki işçilərinin açıqlamaları yer alıb.

Mühəndis deyib ki, şirkətdə hər şey kənardan yaxşı görünə bilər, amma daxildən kiməsə bu, hər şeyi yanan binaya bənzəyir.

"Kənardan fasad yaxşı görünür, amma görürəm ki, heç nə işləmir. Bütün sanitar texnika, bütün kranlar, hər şey xarabdır".

Adının açıqlanmasını istəməyən mühəndis, sosial media platformasında təqibləri məhdudlaşdırmaq üçün əvvəlki səylərlə artıq "heç kim maraqlanmır", - deyə bildirib.

Hesabata görə, nifrət artıb, trollar isə daha azad və aktivdir. Mizojinistik və təhqiramiz profilləri izləyənlərin sayı 69 faiz artıb.

"TRT Haber"in xəbərinə görə, adı açıqlanmayan başqa bir mühəndis Maskın tviter işçilərinə etibar etmədiyi üçün qəribə davrandığını deyib.

"Ofisdə hara getməsindən asılı olmayaraq, onun ən azı iki cangüdəni var. O, çox yöndəmsiz, uzunboyludur, Hollivud filminin mühafizəçiləri onu hamama qədər izləyirlər".

İddialar arasında Elon Maskın bütün təmizlik və yemək hazırlayan işçilərini işdən çıxardığı və işçilərə ofis bitkilərini satmağa çalışdığı da yer alıb.

**Turan**

## Günəbaxan yağı tromb yarada bilər



**Qidalanmada xörəklərə, salatlara və digər qarnir yeməklərinə əlavə etdiyimiz bitki yağları orqanizmdə trombların əmələ gəlməsinə şərait yarada bilər.**

Biz bu yağlardan lazımi qida və enerji alırıq, həzm sisteminin işini normallaşdırır, yağlar bədəni sistemli iltihabdan qoruyur.

"Medicina" xəbər verir ki, amma bitki yağların arasında günəbaxan yağı qanda tromb yarada bilər.

Trombların meydana gəlməsi ateroskleroz adlanır. Ateroskleroz, damarların daralmasına səbəb olan qan damarlarının divarında xolesterolun çökməsi prosesidir.

Simptomları sinə ağrısı, təngnəfəslik, tez-tez baş ağrısı, qulaqlarda səs-küy, yorğunluq sindromu, qan təzyiqi yüksəlməsi.

Həkimlər bitki yağlarını qızartmalarda az istifadə etməyi məsləhət görüb. Qızarılan yağ öz tərkibini itirdiyi üçün müxtəlif xəstəliklər yaradır. Ekspertlər qızartmaları yalnız zeytun yağında etməyi məsləhət görürlər. Çünki yeganə zeytun yağıdır ki, qızarılan zaman tərkibini dəyişmir.

## Fevralda Azərbaycana gələn turistlərin sayı açıqlanıb



**Ötən ay ölkəyə 113 473 turist gəlib.**

**Dövlət Turizm Agentliyi xəbər verir ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz çoxdur. Belə ki, 2022-ci ilin fevralında ölkəyə gələnlər 76 376 nəfər təşkil edib. Ən çox turist Rusiya (35 067), Türkiyə (23 714), İran (10 228), Gürcüstan (6584), Hindistan (4653) və Pakistandan (3864) gəlib.**

**2019-cu ilin müvafiq dövrü ilə müqayisə etdikdə bu ilin fevralında Türkiyə (6 faiz), Cənubi Asiya (33 faiz), Cənub Şərqi Asiya (44 faiz) və Afrikadan (21 faiz) gələnlərin sayında artım müşahidə olunub.**

## Zərərçəkənlər üçün milyonluq ianə etdi



**Britaniyalı aktyor Henri Kavill Türkiyədə zəlzələdən zərərçəkənlərə 1 milyon dollar ianə edib.**

**Axşam.az xəbər verir ki, bu barədə "Turkish Posts English" məlumat yayıb.**

**Nəşrin məlumatına görə, aktyor ölkəyə səfər edib. Onun yardımları arasında zərər çəkmiş bölgələrin ərzaq və heyvan qidaları təmin edilməsi də daxildir.**

## Nişanlısından ayrılan kimi yeni sevgili tapdı



**Kanadalı məşhur rok ifaçısı Avril Lavin yeni eşqə yelkən açıb.**

**Axşam.az xəbər verir ki, müğənni reper Tyga ilə münasibətdədir. Paris moda həftəsinə qatılan cütlük dodaq-dodağa olarkən paparatsilərin obyektivinə tuş gəlib.**

**Qeyd edək ki, Avril bundan əvvəl reper Derek Rayan Smitlə (Mod San) nişanlı olub və ötən ay ondan ayrılıb. O, 2 dəfə ailə qurub, boşanıb.**